

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ QAPISI

**100 ilin qəzeti**

Sayı: 18 (24.400)

*11 may 2024-cü il, şənbə*

www.serqqapisi.gov.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*


# Müdriklik zirvəsi



## Ümummilli Lider HEYDƏR ƏLİYEV:

**“Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır.”**

Bu gün qədirbilən hər bir Azərbaycan vətəndaşının qəlbində Ulu Öndər Heydər Əliyevin ölməz və işıqlı obrazı yaşayır. Azərbaycan xalqının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev ölkəmizin dövlətçilik tarixində o qədər böyük yeniliklərə, nəhəng işlərə imza atıb ki, deyilən sözlər onun cahanşümul fəaliyyətini əhatə etməkdə acizdir.

İllər ötdükcə biz Heydər Əliyev dühasının müstəqil və müasir Azərbaycanın tarixindəki əvəzsiz rolunu daha dərindən dərk edir, bu dahi şəxsiyyətin siyasi əzəməti, beynəlxalq nüfuzu barədə təkrar-təkrar düşünməyə mənəvi ehtiyac duyuruq. Çünki bu gün Azərbaycanın qüdrətli dövlətə çevrilməsi, dinamik sosial-iqtisadi inkişafı, dünya birliyində öz layiqli yerini daha da möhkəmləndirməsi məhz Heydər Əliyevin ideyalarının yaşamasının, siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir. İstər ölkəmizin tarixində, istərsə də xalqın yaddaşında Heydər Əliyev müstəqil və suveren dövlətin simvolu, xarizmatik siyasət dahisi, cəsur insan və ən böyük vətəndaş kimi qalmışdır və qalacaqdır. O, Azərbaycanın ən yeni tarixində bütöv bir epoxanı özündə təcəssüm etdirən, müstəqil dövlətin siyasi, iqtisadi, hüquqi, sosial-mədəni, elmi əsaslarını yaradan, onların ardıcıl inkişafını təmin edən siyasi kursun və milli inkişaf strategiyasının müəllifidir.

*Ardı 3-cü səhifədə*

## 20 ili əsrə bərabər edən lider



Səhifə ⇨ 2

## Azərbaycan mədəniyyətlərin qovuşduğu məkandır




Səhifə ⇨ 4


Qarabağda inşa olunan türk məktəbləri qardaşlığımızın simvoludur 4

Naxçıvanda Ulu Öndərin 101 illiyi və Naxçıvanın 100 illiyi ilə bağlı konfrans və vəkilliyə namizədlərin təntənəli andiçmə mərasimi keçirilib 5

Naxçıvanda Heydər Əliyev adına tam orta məktəbin fəaliyyətə başlamasının 20 illiyi qeyd edilib 9

Torpağından qəhrəmanların ətri gələn, bulaqlarının gözündən vətənpərvərlik süzülən cənnətdir Şuşa 14

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyevin Fəxri xiyabanda məzarını ziyarət ediblər





Müasir müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın dahi oğlu və Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü günüdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin Fəxri xiyabanda məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, Ulu Öndərin xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra birinci xanım Mehriban Əliyeva Ümummilli Liderin xatirəsini dərin hörmətlə yad etdi.

Dövlətimizin başçısı və birinci xanım Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olundu.

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə bir sıra incəsənət xadimləri mükafatlandırılıb

Mükafata layiq görülənlər arasında Naxçıvan Muxtar Respublikasının da incəsənət adamları var.

Abdullayev İlkin Əşrəf oğlu,
Məmmədov Hakim İlham oğlu,
Tağıyev Cəfər Vəli oğlu,
Qibləliyev İsrafil Arif oğlu,
Hüseynova Nərmin Mətləb qızı,
Novruzova Kəklik Vəliyyəddin qızı,
Məmmədova Səkinə Çapay qızı,
Ələsgərova Əfqanə Elşad qızı,
Allahverdiyev Həbib Rəşad oğlu,
Əliyev Məhəmməd Əli oğlu.

Mükafata layiq görülən dəyərli incəsənət adamlarını təbrik edir, fəaliyyətlərində uğurlar arzulayırıq.




# 20 ili əsrə bərabər edən lider

## *Naxçıvan bu liderliyin sayəsində yeni investisiya mərkəzinə çevriləcək*

Hər bir dövlətin qurulması, onun möhkəmləndirilməsi, hər şeydən əvvəl, bu missiyanı yerinə yetirən liderdən asılıdır. Əgər 30 il əvvəl məhv olmaq təhlükəsi ilə üz-üzə qalan Azərbaycanı Heydər Əliyev liderliyi xilas edərək inkişaf yoluna çıxartmışdısa, son 20 ilin uğurları bu missiyanı layiqincə davam etdirən cənab İlham Əliyevin adı ilə bağlıdır. 2003-cü ildə dövlət başçısı kimi fəaliyyətə başlayan cənab İlham Əliyev bu illər ərzində təkcə rəhbər yox, həm də lider olduğunu sübut etdi. Siyasi fəaliyyətində Ulu Öndərin ***"İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir!"*** prinsipini əsas tutan Azərbaycan Prezidenti ***"Azərbaycanın iqtisadiyyatı güclü olarsa, bütün məsələləri həll etmək imkanımız olacaqdır"*** tezisi ilə yola çıxaraq bu gün əldə etdiyimiz uğurların müəllifinə çevrildi. Ölkənin inkişafının bazar iqtisadiyyatı, özəl sektorun formalaşması, sosial islahatlar, ordu quruculuğu, hüquq-mühafizə orqanlarının fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması, məcburi köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılması ilə birbaşa bağlı olduğunu zərgər dəqiqliyi ilə bilən cənab İlham Əliyev Azərbaycanın ərazi bütövlüyü və suverenliyini də təmin edərək 20 il ərzində ölkəmizi tamamilə fərqli bir zirvəyə gətirib çıxartdı. O zirvə ki Azərbaycan bu gün təkcə regionda deyil, dünyada söz sahibi olan dövlətlər sırasında yer alır. Regionda elə bir iqtisadi, siyasi layihə yoxdur ki, Azərbaycanın burada rolu, rəyi nəzərə alınmasın.

Azərbaycan Prezidentinin 2003-cü ildən ölkəyə rəhbərliyi bütün sahələrdə sürətli inkişafın mənzərəsini ortaya qoyur. Vurğulanmalıdır ki, ölkənin ümumi inkişafı, yuxarıda da deyildiyi kimi, onun iqtisadi gücündən birbaşa asılıdır. Əgər bu güc yoxdursa, o zaman heç bir inkişafdan da danışmaq mümkün deyil. Məhz Heydər Əliyev siyasi xəttinin inkişaf etdirilməsinin təməlində də, ilk növbədə, ölkənin iqtisadi müstəqilliyi dayanır. Ulu Öndər Heydər Əliyevin şah əsəri hesab edilən "Əsrin müqaviləsi" ilə başlayan bu iqtisadi dirçəliş qısa müddətdə Azərbaycanda digər sahələrin də inkişafına təkan vermiş, nəticədə, sosial-iqtisadi inkişaf təmin olunmuş, müstəqilliyimizin dayaqları möhkəmlənmişdir. Təbii sərvətlərdən qazanılan valyuta ölkədə mühüm Dövlət proqramlarının icra olunmasına, sənaye və kənd təsərrüfatının inkişafına, enerji təhlükəsizliyinin təmin edilməsinə yönəldilərək güclü iqtisadi bazanın əsası qoyulmuşdur. Bunun nəticəsidir ki, 20 illik bir dövrdə Azərbaycanda sağlam iqtisadi inkişaf modeli formalaşmış, makroiqtisadi sabitliyə nail olunmuş, əhalinin həyat səviyyəsi yüksəlmişdir. Bu deyilənləri rəsmi statistika da sübut edir. Əgər 2003-cü ildə ölkədə ümumi daxili məhsul 7 milyard dollar idisə, bu gün bu rəqəm 72 milyard dollara çatıb. Və yaxud həmin il valyuta ehtiyatlarımız 1,6 milyard dollar təşkil edirdisə, bu gün artıq bu ehtiyatımız 70 milyard dollara yaxınlaşıb. Ən əsası Azərbaycanda yoxsulluq səviyyəsi 50 faizdən 5 faizə enib.

Təbii ki, ölkəmizin bu uğurları Naxçıvan Muxtar Respublikasının da hərtərəfli inkişafına şərait yaradıb. Bir zamanlar ağır blokada şərtləri altında yaşayan muxtar respublika bu gün artıq yeni inkişaf mərhələsinə qədəm qoyub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" bu mərhələnin yeni yol xəritəsidir. Proqramda 11 prioritet üzrə, o cümlədən özəl sektorun inkişafı ilə bağlı mühüm fəaliyyət istiqamətləri müəyyənləşdirilib. Həmçinin əlverişli biznes mühitinin yaradılması, hüquqi və fiziki şəxslərə vergi, gömrük, sosial sığorta və digər sahələrdə güzəştlərin tətbiq edilməsi, yerli və xarici investisiyaların cəlb edilməsi ilə bağlı tədbirlərin görülməsi, bank və sığorta xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi, sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsi, zəmanət və digər dəstək mexanizmlərinin tətbiqi, ən əsası isə azad iqtisadi zonaların yaradılması Dövlət Proqramında nəzərdə tutulan əsas vəzifələrdir.

Artıq ötən qısa dövrdə bu istiqamətdə müəyyən addımlar atılıb. Şəffaflığın artırılması, "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması, biznes fəaliyyətinin leqallaşdırılması nəticəsində dövlət büdcəsinə vergi daxilolmalarının həcmi artıb. Buna görədir ki, 2023-cü ildə özəl sektorun büdcə gəlirlərində payı 55,7 faiz, vergi daxilolmalarında da payı isə 62,4 faiz təşkil edib. Bundan əlavə, ötən il Sahibkarlığın İnkişafı Fondu tərəfindən 40 investisiya layihəsinə 6,2 milyon manat güzəştli kredit verilib ki, bunun da 84,8 faizi sənaye, 11,7 faizi kənd təsərrüfatı, 3,5 faizi isə xidmət sektoruna yönəldilib. Görülən işlərin nəticəsidir ki, 2023-cü ildə muxtar respublika iqtisadiyyatında kiçik və orta biznesin dominantlığı xeyli yüksəlib, qeydiyyatda olan belə subyektlərin sayı 26 faiz artıb. Ümumilikdə isə ötən il Naxçıvan Muxtar Respublikasında 1 milyard 552 milyon manat dəyərində ümumi daxili məhsul, o cümlədən 593,9 milyon manatlıq sənaye məhsulu, 358,4 milyon manatlıq isə kənd təsərrüfatı məhsulu istehsal olunub.

Naxçıvan həm də ölkəmizdə böyük "yaşıl enerji" potensialına malik regiondur. Ötən dövrdə alternativ və bərpa olunan enerji mənbələrindən istifadə məqsədilə görülmüş işlər nəticəsində Naxçıvanda günəş elektrik stansiyalarının ümumi gücü 39 meqavata, illik istehsal gücü 58,5 milyon kilovatsaata çatdırılıb. Dövlət Proqramına uyğun olaraq bu istiqamətdə işlər davam etdirilir. Məqsəd digər "yaşıl mənbə"lərdən də alınan təmiz enerjinin ixracına nail olmaq, Naxçıvanı "yaşıl enerji" ixracında dəhlizə çevirməkdir.

Dövlət Proqramında həyata keçirilməsi nəzərdə tutulan azad iqtisadi zonanın, muxtar respublika ərazisində xüsusi gömrük rejiminin yaradılması və bunun da nəticəsində ixraca logistik dəstək verilməsi əsas məqsədlərdən sayılır ki, bu da Naxçıvanı sahibkarlar üçün cəlbedici investisiya mərkəzinə çevirəcək.

**Səbuhi HƏSƏNOV**

# Prezident İlham ƏLİYEV:

***“Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir”.***



*(əvvəli 1-ci səhifədə)*

Bu gün biz azərbaycanlıların ölkəmiz haqqında danışanda fəxr edə biləcəyi, qürurla öyünəcəyi çox uğurları, nailiyyətləri vardır. Bu uğurların istisna olmadan hamısı Ulu Öndərimizin adı ilə bağlıdır. Müstəqil Azərbaycanda elə bir sahə yoxdur ki, onun inkişafında dahi şəxsiyyət Heydər Əliyevin zəhməti olmasın. Bütövlükdə, Heydər Əliyev epoxası yüksəliş epoxasıdır – iqtisadiyyatdan başlamış mədəniyyətə qədər müxtəlif sahələrdə yüksəliş zəmanəsidir.

Taleyin hökmü ilə iki dəfə xilaskarlıq missiyasını üzərinə götürərək hakimiyyətə gələn Ümummilli Lider Heydər Əliyev Azərbaycanın müqəddəratının həll olunduğu təhlükəli və mürəkkəb məqamlarda xalqın köməyinə çatmış, ona dayaq olmuş, zamanın ağır məngənəsindən onu xilas etmişdir. Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib zənginləşdirilməsi, müstəqilliyin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, beynəlxalq nüfuzunun sürətlə artması məhz dahi şəxsiyyət Heydər Əliyevin titanik fəaliyyəti sayəsində mümkün olmuşdur.

Ümummilli Liderimiz Naxçıvan Muxtar Respublikasında yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illərdə muxtar respublikanı işğaldan, məhv olmaqdan, düşmən əlinə keçməkdən xilas etməklə Naxçıvana yeni bir həyat bəxş etmişdir. Ulu Öndərin rəhbərliyi ilə Naxçıvandan başlanan müstəqillik hərəkatı bütün Azərbaycan siyasi mühitində aparıcı siyasi qüvvəyə çevrilməklə milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı.

Naxçıvanda görkəmli dövlət xadiminin rəhbərliyi ilə həyati əhəmiyyət daşıyan qərarlar qəbul edildiyi bir vaxtda Azərbaycanın digər bölgələrində bunun əksi – siyasi hərc-mərclik, özbaşınalıq, vətəndaş müharibəsi baş qaldırmışdı. Ölkəmizin məhvə sürükləndiyi belə bir vaxtda xalq yeganə ümid və xilas yolunu Naxçıvandan başlanan qurtuluşda – Ümummilli Liderimizin böyük siyasətə qayıdışında tapdı. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövrü ölkəmizin dövlət müstəqilliyinin qorunub saxlanılması, möhkəmləndirilməsi uğrunda mübarizə və yeni Azərbaycanın qurulması dövrüdür. Bu dövrdə Ümummilli Lider doğma xalqının önündə gedərək Azərbaycanı tarixin ən qanlı burulğanından çıxara bilmiş və ölkəmizin qurtuluş mübarizəsinin qalibi kimi tariximizə daxil olmuşdur. Bu şanlı missiyanı Ulu Öndər son dərəcə çətin, mürəkkəb və ziddiyyətli tarixi şəraitdə yerinə yetirmişdir. 1990-93-cü illərin Azərbaycanı məqsədli şəkildə xaos, anarxiya girdabına, vətəndaş qarşıdurmasına sürüklənirdi. Regionda strateji marağı olan güc mərkəzləri tərəfindən ölkəmizin parçalanması, quberniyalara və əyalətlərə bölünməsi planı artıq çoxdan cızılmışdı və işə salınmışdı. Belə bir şəraitdə xalq yeganə nicatını, ölkənin siyasi və iqtisadi böhrandan qurtulmasının, vətəndaş qarşıdurmasının aradan qaldırılmasının, dövlət müstəqilliyinin daimi və əbədi olmasının yolunu Ümummilli Lider Heydər Əliyevdə gördü. Təsadüfi deyil ki, milli liderin xalqın tələbi ilə siyasi hakimiyyətə qayıtdığı gün – 1993-cü ilin 15 iyunu tarixə “Milli Qurtuluş Günü” kimi daxil oldu. Azərbaycan milli və müstəqil dövlət kimi mövcudluğuna görə bu tarixi qayıdışa, milli qurtuluşa borcludur.

Keçən əsrin 90-cı illərində çox mürəkkəb tarixi-siyasi şəraitdə Moskvada nəzarət və təqiblərdən yaxa qurtararaq öz xalqının köməyinə gələn Ümummilli Lider Heydər Əliyev Bakıda da dönük rəhbərlərdən soyuq münasibət görəndə doğulduğu torpağa üz tutmuşdu. Burada həmyerliləri Ulu Öndəri misilsiz bir səmimiyyət və ehtiramla qarşılamışdılar. Başı üstünü qara buludlar almış muxtar respublika əhalisi Heydər Əliyevin zəka və qüdrətinə sığındı. Naxçıvanlılar Ulu Tanrının xalqımızın xilası və nicatı üçün qoruyub saxladığı böyük rəhbərin ətrafında sıx birləşdi, Onu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçdilər. Ümummilli Liderin həyata keçirdiyi müdrik və qətiyyətli tədbirlər qısa müddətdə muxtar respublikanın etibarlı müdafiəsini təmin etdi, bununla bağlı qabaqlayıcı addımlar atdı. Bu tarixi reallıqları dəyərləndirən Azərbaycan Prezidenti cənab İlham Əliyev demişdir: ***“O illərdə ancaq Ulu Öndər Heydər Əliyevin əzmkarlığı, qətiyyəti və siyasi bacarığı Naxçıvanı böyük bəlalardan qorudu... Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu”.***

Ölkə başçısının gündəlik diqqət və qayğısı ilə əhatə olunan qədim Naxçıvan diyarında bu gün yeni bir həyat çağlayır. Muxtar respublikada aparılan irimiqyaslı quruculuq işlərini, regionun sosial-iqtisadi inkişafını daim diqqətdə saxlayan və bu işlərlə yerindəcə tanış olan cənab İlham Əliyevin Naxçıvanın kiçik problemlərinə belə böyük həssaslıqla yanaşması hər birimizin ürəyini dağa döndərir. Bugünkü Naxçıvan Ulu Öndərin arzuladığı Naxçıvandır. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən 2023-cü il 30 dekabr tarixdə imzalanmış “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncam dövlətçiliyimizin taleyüklü məsələlərinin həllini tapdığı, blokada şəraitində yaşayan Naxçıvana böyük diqqət və qayğının daha bir ifadəsidir. Sərəncamda deyilir: *“Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəyləri – Eldəgizlər dövlətinin paytaxtı olmuş, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır. Naxçıvan əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir”.*

Ümummilli Liderimizin işləyib hazırladığı inkişaf konsepsiyası bu gün də müstəqil Azərbaycanın uğur modelidir. 1993-cü ilin Azərbaycanı ilə müasir dövrün Azərbaycanını müqayisə etsək, Ulu Öndər Heydər Əliyevin və onun siyasi xəttinin müstəqil Azərbaycana bəxş etdiyi inkişaf və tərəqqinin əsl mahiyyəti ortaya çıxır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“O vaxt Azərbaycanda xaos hökm sürürdü. Bu gün Azərbaycanda sabitlikdir. O vaxt Azərbaycanda hərc-mərclik var idi. Bu gün Azərbaycanda sülhdür, əmin-amanlıqdır. O vaxt Azərbaycanın iqtisadiyyatı tənəzzülə uğrayırdı. Bu gün Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkələrdən biridir. O vaxt Azərbaycan vətəndaş müharibəsi ilə üz-üzə qalmışdı. Bu gün Azərbaycanda milli birlik, milli həmrəylik mövcuddur. O vaxt Azərbaycanda total böhran hökm sürürdü. Bu gün dünyanın aparıcı dairələri etiraf edir ki, Azərbaycan ən qüdrətli ölkəyə çevrilməkdədir. Bütün bunları edən, bütün bunları yaradan xalqın dəstəyinə arxalanan xalqımızın Ümummilli Lideri Heydər Əliyev olmuşdur. Bütün bunlar onun zəhmətidir, onun əməyidir və bu gün biz xalqla birlikdə Azərbaycanı daha da inamla, daha da sürətlə inkişaf etdiririk”.***

Ümummilli Liderin qətiyyəti xalqın inamını özünə qaytarmış, sabitlik və əmin-amanlıq yaradılmış, uğurlu daxili və xarici siyasət sayəsində ölkəmiz xaosdan xilas olmuş, sivil demokratik inkişaf yolu ilə inamla irəliləyərək böyük nailiyyətlər qazanmışdır. Azərbaycanın müstəqilliyinə yönəlmiş müdrik siyasətin təməlini qoymuş Ulu Öndər Heydər Əliyev çiyinlərində bütöv bir xalqın varlığını, bütün bəşəri keyfiyyətlərini, dövlətçilik missiyasını daşıyan böyük lider kimi millətin xarakterini, milli iradəni atdığı hər bir addımında əks etdirirdi. Görkəmli dövlət xadimi Heydər Əliyev təkcə öz ömrünün, bir insan həyatının müdriklik zirvəsində deyildi, həm də bütöv bir xalqın tarixinin yüksək zirvəsində idi. O, Azərbaycan xalqının müdriklik simvolu, müdriklik zirvəsi idi. Bu zirvədən baxanda yalnız bir ömrün yaşandığı illər deyil, bir xalqın dünəni, bu günü, sabahı görünür.

Ölkəmizdə Ulu Öndər tərəfindən müəyyən olunmuş siyasi kursun möhkəmləndirilməsi və inkişaf etdirilməsi dövlət başçısı cənab İlham Əliyevin fəaliyyətinin prioritet istiqamətini təşkil edir. Ötən 20 ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev əvvəlki illərdə əsası qoyulmuş böyük layihələrin tamamlanmasına, həmin zəmində möhtəşəm quruculuq proqramlarının hazırlanıb həyata keçirilməsinə nail olmuşdur. Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqeləri daha da möhkəmləndirilmiş, ölkəmizin dünya dövlətləri arasında nüfuzu artmışdır. Azərbaycanın böyük intibah prosesləri üçün zəruri olan tranzit ölkəyə çevrilməsi bu qədim diyarda siyasi düşüncələrin, elmi fikirlərin, mədəniyyətlərin, dini baxışların dialoqunun baş tutmasını şərtləndirmişdir. Ölkəmizdə Azərbaycançılıq məfkurəsi dərinləşmiş, milli mədəniyyətimiz, elmimiz və ədəbiyyatımız dünyada tanıdılmış, bu istiqamətdə geniş təbliğat işləri aparılmışdır. Mədəniyyət, elm və səhiyyə müəssisələrinin yenidən qurulması, inkişaf etdirilməsi istiqamətində görülən işlər xalqın mənəvi varlığının və milli kimliyinin qorunub saxlanmasına, bu sahələrin sıçrayışlı inkişafına təkan vermişdir.

Bu gün Azərbaycan xalqı çoxəsrlik tarixinin şərəfli mərhələsini yaşayır, bütün dünya azərbaycanlıları qürur və sevinc hissləri keçirirlər. Azərbaycan xalqı Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər milli ordumuzun 27 sentyabr 2020-ci il tarixdən başlanan əks-hücum əməliyyatları nəticəsində 30 ilə yaxın mənfur qonşumuz Ermənistanın işğal altında saxladığı Qarabağı azad etməklə milli çağdaş tariximizə şanlı səhifə yazdı. Tariximizə 44 günlük Vətən müharibəsi kimi daxil olan bu hərbi əməliyyat nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyü təmin edildi. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə, Azərbaycanın möhtəşəm qələbəsi ilə nəticələnmiş 44 günlük Vətən müharibəsi həm də milli birliyə və həmrəyliyə, milli-mənəvi dəyərlərə və milli özünüdərkə söykənən Heydər Əliyev ideologiyasının alternativinin olmadığını bir daha ortaya qoydu.

Hər birimiz sevinir və qürur hissi keçiririk ki, müstəqilliyin yolları ilə inamla irəliləyən Azərbaycanda Ulu Öndərin amal və əməlləri dönmədən həyata keçirilir. Ölkəmiz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə yeni-yeni uğurlar qazanır. Respublikamız böyük addımlarla qarşıya qoyulmuş məqsədlərə doğru inamla irəliləyir.

Vətəni, torpağı sevmək, onun ağrısını, dərdini çəkmək, milli mənafeyi şəxsi mənafedən üstün tutmaq ən böyük vətəndaşlıqdır. Zəmanəsinin ən böyük azərbaycanlısı, böyük şəxsiyyət, Ümummilli Lider Heydər Əliyev də öz əməlləri və siyasi fəaliyyəti ilə məhz belə şəxsiyyətlərdən olduğunu sübut etmişdir. O, Azərbaycan vətəndaşı olduğunu hər yerdə, böyük qürurla, fəxrlə söyləmişdir: ***“Mən fəxr edirəm ki, azərbaycanlıyam”.*** Bu kəlmələri deyən dahi şəxsiyyət Heydər Əliyev xalqının qəlbində milli-mənəvi dəyərləri yaşatmaq üçün əbədi bir məşəl – Azərbaycançılıq ideyasından güc alan sönməz məşəli alovlandırmışdır. Dahi şəxsiyyət Heydər Əliyev öz ölkəsini yeni yüzilliyə, həm də yeni minilliyə müstəqil dövlət kimi gətirmişdir.

Bütün ölkə vətəndaşları inanırlar ki, həyatını canından əziz bildiyi Vətəninə xidmətdə keçirmiş Heydər Əliyevin dühası işığında doğma Azərbaycanımız həmişə irəliyə və yüksəlişə doğru gedəcəkdir. Ulu Öndər Heydər Əliyevin ideyaları həmişə olduğu kimi, bu gün də yolumuza işıq saçır, bizi yeni-yeni qələbələrə səsləyir. Ümummilli Lider Heydər Əliyev xalqın qəlbində tayı-bərabəri olmayan heykəl, əsrlər boyu yaşayacaq abidə – şah əsər ucaltdı. Bu abidənin, şah əsərin adı Azərbaycandır – müstəqil və qüdrətli Azərbaycan!

**Məhəbbət MİRZƏYEVA**

# Azərbaycan mədəniyyətlərin qovuşduğu məkandır

Azərbaycan əsrlər boyu müxtəlif mədəniyyətlərin qovuşduğu məkan olmuş və Qərblə Şərq arasında körpü rolunu oynamışdır. Ona görə də bu gün əminliklə demək olar ki, Azərbaycan müstəqil və iradəli şəkildə dünyadakı qlobal proseslərə qoşulur və sülhün, dinc yaşayışın təminatına dəstək verir, mədəniyyətlərarası sintezin formalaşmasında ciddi rol oynayır. Azərbaycanın mədəniyyətlərarası münasibətlərdə qazandığı təcrübələr multikulturalizm, Azərbaycançılıq ideologiyasının təbliğində, xalqlar arasında dialoqun təşkilində mühüm rol oynayır. Dünyada qeyri-sabitlik və qarşıdurma ocaqlarının artdığı və Avrasiya miqyaslı geosiyasi dəyişikliklərin baş verdiyi bir zamanda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi də deyilənlərin real təsdiqidir. Qlobal əhəmiyyət kəsb edən beynəlxalq məsələlərin həlli üçün Bakıda "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda keçirilən forum Azərbaycanın bəşəri problemlərə biganə olmadığını və qloballaşan dünyamızda həm də Cənubi Qafqazda baş verən hadisələrə yeni bir baxış bucağı sərgilədiyini nümayiş etdirdi.

2008-ci ildə Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə başladılmış, mədəniyyətlərarası dialoq sahəsində yeganə qlobal platforma olan "Bakı Prosesi" mənəvi-mədəni dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın təşəbbüsü ilə müxtəlif mədəniyyətlər və dinlər arasında səmərəli dialoqun qurulması məqsədilə irəli sürülmüş və qlobal hərəkata çevrilmiş "Bakı Prosesi" çərçivəsində müntəzəm olaraq Azərbaycanda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Bakı Beynəlxalq Humanitar Forumu, eləcə də Dünya Dini Liderlərinin Sammiti və Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının Qlobal Forumu təşkil edilir. Mədəniyyətlərarası və dinlərarası dialoqun möhkəmləndirilməsinə böyük töhfə verən və artıq Azərbaycanın dini-mənəvi dəyərlərə dərin ehtiramının ifadəsinə çevrilən bu cür tədbirlər ölkəmizin tolerantlıq mühitinin təbliği baxımından son dərəcə önəmlidir.

2011-ci ildən bu günə qədər keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafında aparıcı rolunun bir daha bütün dünyaya sübutu olmaqla yanaşı, həm də ciddi bir beynəlxalq platformaya çevrildiyini göstərir. VI Forumda 110 ölkəni təmsil edən 700 mötəbər qonağın iştirak etməsi dünyada bu foruma və Bakıya artan marağın göstəricisidir.




VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində çıxış edən Prezident cənab İlham Əliyev bir daha dünyaya sülh, həmrəylik çağırışı etdi. Azərbaycanın bu yolda tutduğu mövqeyini, qarşıya qoyduğu məqsədini açıqlayan cənab Prezident qlobal təhdidlərə qarşı birgə mübarizənin konturlarını təqdim etdi. ***"Mədəniyyətlərarası dialoq elə bir məfhumdur ki, biz onu güclü şəkildə təşviq edirik. Ölkəmizdə çoxsaylı tədbirlər təşkil edirik. Bunlar dinlərarası dialoqla bağlıdır. Müzakirələrin bir hissəsi olaraq məhz bunu Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində də həyata keçiririk və digər tədbirlərdə bu məsələyə toxunuruq. Bununla bağlı xüsusi müzakirə sessiyası və COP29 tədbiri də olacaqdır. Bu dialoq məsələsi orada da müzakirə olunacaqdır. Əminəm ki, bütün dünyadan gələn bu sahə üzrə rəhbərlər bu gün Bakıda həmrəylik nümayiş etdirəcəklər və liderlik göstərəcəklər".***

Bu forum bir daha nümayiş etdirdi ki, Platformanın ideya müəllifi olan cənab İlham Əliyevin forumdakı çağırışı dünyada mədəniyyətlərarası dialoqun inkişafına, bu platformada ölkələrin birləşdirməsinə, fərqli mədəniyyət və sivilizasiya nümayəndələri arasında yeni körpülərin qurulmasına xidmət edir.

**Arzu ABDULLAYEV**
*Naxçıvan Dövlət Universitetinin prorektoru*

## Ölkəmiz ümumdünya mədəniyyətinə və sivilizasiyasına mühüm töhfələr verir

***"Azərbaycan xalqı özlüyündə, təbiətinə görə, öz xarakterinə görə yüksək tolerantlıq hissinə malikdir"***, – deyən Azərbaycan multikulturalizminin siyasi banisi, Ümummilli Lider Heydər Əliyev ölkəmizi milliyyətindən və dinindən asılı olmayaraq, müxtəlif xalqların nümayəndələrinin doğma Vətəni adlandırmışdır. Ulu Öndərin ideyalarını layiqincə davam etdirən dövlətimizin başçısı cənab İlham Əliyevin illər əvvəl dediyi ***"Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilib"*** fikri zamanla multikulturalizm anlayışının beynəlxalq əhəmiyyətini, bəşəriyyətin inkişafında məhz tolerantlıq və multikultural dəyərlərə sahib olmağın mühüm əhəmiyyət kəsb etdiyini dərindən dərk etmək baxımından bir çox məqamlara işıq salıb. Dövlət başçısının imzaladığı müvafiq Sərəncamla 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi bir daha Şərqlə Qərbin qovşağında yerləşən ölkəmizdə dilindən, irqindən asılı olmayaraq, bütün vətəndaşların bir ailə kimi yaşadığını göstərdi.

Dünyada müxtəlif milli-dini zəmində toqquşmaların, savaşların getdiyi bir vaxtda Vətənimizdə yaşayan müxtəlif millətlərin, etnik qrupların birliyi və həmrəyliyi, onlar arasındakı dostluq qürurvericidir. Biz II Qarabağ müharibəsi zamanı da bunun yaxından şahidi olduq. Ölkəmiz multikultural ənənələrə sadiq olduğunu dəfələrlə nümayiş etdirməklə mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub saxlanması və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə öz töhfələrini verib.

Bəşəriyyətin qlobal təhlükələrlə üz-üzə qaldığı indiki dövrdə dövlətimiz tərəfindən həyata keçirilən irimiqyaslı enerji, nəqliyyat layihələri ölkədəki daxili sabitlik və təhlükəsizliyin və onu reallaşdıran milli tolerantlıq və multikulturalizm siyasətinin sayəsində mümkün olub. Və bu bütün dünya üçün örnəkdir. Məhz mayın 1-də Bakı Konqres Mərkəzində "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu "Bakı Prosesi"nin hissəsi olaraq mədəniyyətlərarası dialoqu qlobal şəkildə təşviq edir. Fərqli etnik, mədəni, din və dil mənşəyi olan insanları bir araya gətirən forumun əsas məqsədi dialoq vasitəsilə sülhü təşviq etmək, qlobal təhlükəsizliyi gücləndirmək və əməkdaşlığı möhkəmləndirməkdir. Həmçinin Cənubi Qafqazda yaradılan yeni reallıq fonunda sülh, qarşılıqlı hörmət və anlaşma mühitinin yaradılmasına töhfə verməyə böyük çağırışdır. Azərbaycan dövlətinin başçısı Forumun açılış mərasimindəki nitqində dedi: ***"Çoxmədəniyyətli və böyük etnik müxtəlifliyə malik olan Azərbaycan cəmiyyəti əsrlər boyu ən mühüm dəyərləri – tolerantlığı, qarşılıqlı hörməti, dostluq və tərəfdaşlıq kimi dəyərləri qoruyub. Əminəm ki, bir müstəqil ölkə kimi Azərbaycanın uğurlu inkişafını şərtləndirən məsələ məhz bunlardan ibarətdir. Azərbaycanda yaşayan insanlar, müxtəlif etnik qrupların və dinlərin təmsilçiləri bir ailə kimi yaşayırlar. Onlar Azərbaycanın dəyərli vətəndaşlarıdır, dövlətimizin, dövlətçiliyimizin əsl vətənpərvər insanlarıdır".***

Bu gün ən müxtəlif milli-etnik qrupların nümayəndələri dinindən, millətindən asılı olmayaraq, mehriban ailə, dost, qardaş kimi yaşayırlar və onlar Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır. Onlar tarixi, mədəni adət-ənənələrini qoruyub saxlamaq üçün milli mədəniyyət mərkəzlərini, birliklərini, ittifaqlarını yaradıb, öz dillərindən istifadə edir, dini ibadətlərini rahat şəkildə həyata keçirirlər. Daha sıx məskunlaşdıqları yaşayış məntəqələrində onların folklorunun, mədəniyyətinin geniş təbliği üçün tədbirlər təşkil olunur. Əlbəttə ki, qarşılıqlı anlaşma və tarixi dostluq münasibətlərinin möhkəmləndirilməsi, xalqların mədəniyyətlərinin qorunaraq nəsildən-nəslə ötürülməsində Heydər Əliyev Fondunun dəstəyi danılmazdır. Ölkəmizdə yaradılan sağlam mühit hesabına bütün dinlərin və etnik qrupların nümayəndələri sülh, əmin-amanlıq içərisində yaşamaqla ölkəmizin uğurlu inkişafına öz töhfələrini verirlər.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Qarabağda inşa olunan türk məktəbləri qardaşlığımızın simvoludur



Qarabağın otuzillik işğalından sonra geriyə qalan ermənilərə xas dağıntı və vandalizm izlərinin aradan qaldırılması və bu torpaqların yenidən qurulması işində elm və təhsil obyektlərinin tikintisi də paralel olaraq aparılır. Türklərə yaraşan səltənətlə ayaq basdıqları hər yerdə abidələr, mədrəsələr və universitetlər quran Azərbaycan xalqı da Qarabağa Böyük qayıdışın ilk addımlarını elm, təhsil, turizm, alternativ enerji, etibarlı logistika xətlərinin və ağıllı yaşayış məntəqələrinin qurulması, dini abidələrin bərpası kimi dayanıqlı inkişaf vektorları üzərində atır, bununla da dünyaya konkret siyasi mesajlar verir. Ciddi təbii və maliyyə resurslarına sahib olan dünyanın digər ölkələri Ukraynada dağıdıcılıq və təbiətə karbon tullantısı atmaqla məşğul olduqları bir zamanda torpaqlarını yenicə azad etmiş Azərbaycanın bu qədər genişmiqyaslı qlobal əhəmiyyətli məsələləri həll etmək üçün qətiyyətlə işə başlaması, bu mənada, dünyanın diqqət mərkəzindədir. Qarabağda qurulan və qardaş türkdilli ölkələrin də töhfəsi ilə həyata keçirilən məktəb tikintisi isə bu işdə ölkəmizə göstərilən beynəlxalq siyasi dəstəyin bir ifadəsidir.

Ötən il avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyevanın iştirakı ilə Füzuli şəhərində açılışı olmuş Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb özbək xalqı adından Azərbaycana hədiyyə olaraq inşa edilib. 960 şagird yerlik bu məktəb bir təhsil obyekti üçün tələb olunan ən müasir şəraitlə təchiz olunmuşdur. İki qardaş ölkə – Azərbaycanla Özbəkistan arasında dostluq, qardaşlıq və həmrəyliyin növbəti addımı kimi hələ 2021-ci ilin noyabrında İstanbulda keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Özbəkistanın vəsaiti hesabına Füzulidə böyük məktəb inşa ediləcəyini bildirmişdi. Artıq istifadəyə verilmiş məktəb Azərbaycanın torpaqlarını işğaldan azad etmək üçün apardığı haqq savaşında həmişə onun yanında olmuş Özbəkistanın dəyərli hədiyyəsi kimi xalqlarımız arasında dostluğun rəmzi olaraq yüzillərlə yaddaşlarda yaşayacaq.

Bu il martın 12-də Füzuli şəhərində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə açılışı olmuş Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi isə dost və qardaş Qazaxıstan xalqının Azərbaycana hədiyyəsi olmaqla bərabər, eyni zamanda iki dövlət arasında müttəfiqlik, strateji tərəfdaşlığın da bir təcəssümüdür. Qazaxıstanın dövlət başçısının şəxsi təşəbbüsü ilə tikilmiş bu mərkəz otuz ildən sonra öz dədə-baba torpaqlarına qayıdan həmvətənlərimizin burada gördükləri erməni vandalizmi izlərinə görə yaşadıqları hisslərə bir növ mənəvi təskinlik olmuşdur. Bu mərkəzin ölkəmizə hədiyyə kimi tarixən dost və qardaş olmuş Azərbaycan və qazax xalqlarının birliyini, 44 günlük Vətən müharibəsində Azərbaycanın yanında olmuş Qazaxıstanın Qarabağın yenidən inşası kimi prinsipial məsələdə də əvəzsiz dəstək göstərməsinin bir nümunəsidir.



Qarabağda məktəb tikintisində iştirak edən üçüncü qardaş türk ölkəsi Qırğızıstanın ölkəmizin erməni işğalından azad olunmuş digər bir bölgəsində – Ağdamın Xıdırlı kəndində inşa edəcəyi məktəb binası da coğrafi baxımdan aramızda minlərlə kilometr məsafə olsa da, böyük Türk dünyasının Azərbaycanla ən yaxın mənəvi körpüləri olan qırğız xalqının bizə verdiyi böyük mənəvi dəstəyin bir simvoludur. Bu il aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Qırğızıstan Respublikasının Prezidenti Sadır Japarovun Ağdam rayonunun Xıdırlı kənd tam orta məktəbinin təməlqoyma mərasimində iştirakı zaman hər iki dövlət başçısı Azərbaycan və qırğız xalqları arasında tarixən ənənəvi dostluq və qardaşlıq əlaqələrinin mövcud olduğunu, iki ölkənin möhkəm təməllər üzərində qurulan münasibətlərinin yüksələn xətlə inkişaf etdiyini bildirib.

Bəli, bu gün min illərin sınağından çıxmış böyük türk birliyi özünün yeni inkişaf mərhələsindədir. Qərbdə qardaş Türkiyə, şərqdə qardaş Orta Asiya respublikalarının əhatəsindəki Azərbaycan bu birliyin açar mövqeyində olmaqla dünyadakı, xüsusən də yaxın bölgəmizdəki cərəyan edən mürəkkəb geostrateji hadisələrə də şahidlik etməkdədir. Tarixin ağır sınağından üzüağ çıxmış, torpaqlarını işğaldan tam azad etmiş Azərbaycanda dünyanın şahid olduğu mənzərə isə erməni vandalizminin və barbarlığının izlərinin bu torpaqlardan birdəfəlik təmizlənməsi və Böyük Qayıdışa hazırlıqların aparılmasıdır. Bu işdə də Türk dünyası xalqımızın yanındadır.

**Əli CABBAROV**

# Naxçıvanda Ulu Öndərin 101 illiyi və Naxçıvanın 100 illiyi ilə bağlı konfrans və vəkilliyə namizədlərin təntənəli andiçmə mərasimi keçirilib



Mayın 8-də Azərbaycan Respublikası Vəkillər Kollegiyası (ARVK) və Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının (NMRVK) təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasında (MR) "Blokada şəraitində hüquq təsisatlarının səmərəli fəaliyyəti və insan haqlarının müdafiəsi" mövzusunda konfrans, habelə vəkilliyə namizədlərin təntənəli andiçmə mərasimi keçirilib.

Konfrans Ulu Öndər Heydər Əliyevin 101 illiyi və Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunub.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, ARVK-nın sədri Anar Bağırov, onun başçılıq etdiyi nümayəndə heyəti, eləcə də deputatlar, vəkillər və digər dövlət rəsmiləri iştirak ediblər.

Konfransdan əvvəl nümayəndə heyəti Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzindəki abidəsini ziyarət edib, xatirəsini ehtiramla yad edib. Sonra Heydər Əliyev Muzeyinə gedən qonaqlar Ümummilli Liderin həyat və fəaliyyətinə aid fotoşəkil və eksponatlarla tanış olublar. Ulu Öndərin hər kəsə örnək olan çoxşaxəli siyasi fəaliyyəti, o cümlədən həyatının Naxçıvan mərhələsi haqqında qonaqlara ətraflı məlumat verilib.

Mərasim Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, Ümummilli Liderin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Prezidentin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxış edərək bildirib ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyev siyasi fəaliyyətinin bütün dövrlərində qanunun aliliyinə strateji məsələ kimi yanaşıb, hüquq sistemində işlək və çevik mexanizmlər tətbiq olunub, ədalət mühakiməsinin səmərəliliyinə və insan hüquqlarının etibarlı təminatına nail olunub. O, müstəqillik dövründə Ulu Öndərin rəhbərliyi ilə Azərbaycanda Konstitusiyamıza əsaslanan təkmil qanunvericilik bazasının formalaşdırıldığını, hüquq təsisatlarının səmərəli fəaliyyətinə nail olunduğunu deyib.

Fuad Nəcəfli qeyd edib ki, bu gün ölkə Prezidenti cənab İlham Əliyev 100 illiyini qeyd etdiyimiz Naxçıvan Muxtar Respublikasında da hüquq təsisatlarının səmərəli fəaliyyəti və insan haqlarının müdafiəsi işini diqqət mərkəzində saxlayır, ardıcıl islahatlar həyata keçirilir. Ölkə Prezidentinin qayğısı ilə 2006-cı ildə müvəkkil təsisatı formalaşdırılıb, həmçinin 2008-ci ildə NMRVK təsis edilib. Muxtar respublikada hüquq institutlarının elektron xidmətlər göstərməsi təmin olunub və hazırda Muxtar Respublikasında "Elektron məhkəmə", "Elektron notariat" və digər xidmətlər uğurla tətbiq edilir.

Fuad Nəcəfli nəzərə çatdırıb ki, ötən 30 ilə yaxın bir dövrdə Naxçıvan Muxtar Respublikasında dövlət tərəfindən əlverişli şərait yaradılmasına və maddi-texniki təminatın yaxşılaşdırılmasına baxmayaraq, ədalət mühakiməsinin və insan hüquqlarının qorunması sahəsində nöqsanlara da yol verilib. Vətəndaşların mülkiyyət hüquqlarının pozulması və bu kimi hallara hüquq-mühafizə orqanlarında və məhkəmələrdə laqeyd yanaşılması, cinayət qanununun normalarının düzgün tətbiq edilməməsi, sübutların tam və hərtərəfli qiymətləndirilməməsi kimi ciddi hüquq pozuntuları qeydə alınıb. Hazırda dövlət başçısının tapşırıqlarına uyğun olaraq bu istiqamətdə sistemli tədbirlər görülür. Xüsusilə aparılan kadr islahatları muxtar respublikada hüquq təsisatlarının səmərəli fəaliyyəti və insan haqlarının müdafiəsi işində yeni mərhələnin əsasını qoyub.

Açılış nitqi ilə çıxış edən ARVK-nın sədri Anar Bağırov qonaqları salamlayaraq konfransın işinə uğurlar arzulayıb, Naxçıvan Muxtar Respublikasının tarixindən danışıb. Ulu Öndərin xalqın qətiyyətli təkidi ilə yenidən Azərbaycan rəhbərliyinə qayıdışı nəticəsində müstəqillik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərləri təşkil edən yeni bir ideologiyanın əsasının qoyulduğunu bildirən sədr ölkəmizdə insan hüquq və azadlıqlarının təmini, onların inkişafı və müdafiəsi sahəsində bir sıra mühüm addımlar atıldığını dilə gətirib.

Anar Bağırov bu addımların başında məhkəmə-hüquq sahəsində aparılan mütərəqqi islahatların yer aldığını, 1995-ci ildə ümumxalq səsverməsi ilə Konstitusiyamızın qəbul olunduğunu və Konstitusiyada blokada şəraitində olan Naxçıvanın muxtariyyət statusunun bir daha öz əksini tapdığını nəzərə çatdırıb.

Kollegiya sədri vurğulayıb ki, bütün bu fəaliyyətin məntiqi davamı olaraq Ümummilli Lider Heydər Əliyev tərəfindən 28 dekabr 1999-cu ildə "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanun imzalanıb, Azərbaycan tarixində ilk dəfə vəkillik tam müstəqil, hakimiyyətin heç bir qolundan asılı olmayan bir təsisat kimi formalaşıb və həmin dövrdə qəbul olunan prosessual qanunvericiliyə əsasən vəkillik çəkişmə prinsipi çərçivəsində prosesin bərabərhüquqlu peşə birliyinə çevrilib.

Sədr nəzərə çatdırıb ki, Heydər Əliyevin əsas olaraq müəyyən etdiyi fəaliyyət istiqamətləri Prezident cənab İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən daha da sürətləndirilib, beynəlxalq münasibətlərin inkişafı tam təmin edilib. Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən 2020-ci ilin sentyabrından başlayaraq 44 günlük Vətən müharibəsində, habelə 2023-cü ilin sentyabr ayında antiterror əməliyyatları nəticəsində Azərbaycan hakimiyyətinin dövlətimizin bütün ərazisində bərpa edilməsi təmin olunub. Eyni zamanda Qazaxın 4 qeyri-anklav kəndi qan tökülmədən işğaldan azad edilib. Hazırda Azərbaycan müzəffər xalq kimi beynəlxalq müstəvidə yeni uğurlu əməkdaşlıqlar qurur, COP29 kimi nüfuzlu tədbirə ev sahibliyi edir.

Naxçıvanın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu, habelə Muxtar Respublikasının blokada şəraitində yaşamasına baxmayaraq, burada da insan hüquq və azadlıqlarının hər zaman yüksək səviyyədə təmin edildiyini söyləyən Anar Bağırov son illər muxtar respublikada vəkilliyin tarixindən, inkişafından və getdikcə artan nüfuzundan, o cümlədən digər bir sıra önəmli məsələlər barədə konfrans iştirakçılarına məlumat verib.

Eyni zamanda sədr şəxslərin yüksəkkeyfiyyətli hüquqi yardıma çatımlılığını təmin etmək, habelə müasir İKT-dən istifadəni daha da artırmaq məqsədilə Naxçıvanda fəaliyyət göstərən vəkillər üçün "Elektron vəkil kabineti"nin imkanları və elektron məhkəmədən istifadə, elektron müraciət qaydaları mövzularında təlimlərin təşkil olunduğunu bildirib.

Sonra Ümummilli Lider Heydər Əliyevin mənalı ömür yoluna və titanik fəaliyyətinə həsr olunan film, o cümlədən son illər NMRVK-nın fəaliyyətinə dair videoçarx nümayiş etdirilib.

Eyni zamanda tədbirdə III "Yüksəliş" müsabiqəsinin qalibi İbrahim Məmmədzadə "Naxçıvanın inkişaf potensialı" mövzusunda təqdimatla çıxış edib. Təqdimatda Naxçıvan Muxtar Respublikasının rəsmi sosial-iqtisadi göstəriciləri digər regionlarla müqayisəli şəkildə diqqətə çatdırılıb.

O, həmçinin Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı çərçivəsində GZİT təhlili və əsas istiqamətlər üzrə maraqlı məqamları vurğulayıb, xüsusilə turizm göstəricilərini təhlil edib. Son olaraq bənzər strateji mövqeyə sahib bəzi qlobal regionlardan müqayisəli göstəricilər təqdim olunaraq potensial inkişaf yolları qeyd edilib.

Həmçinin mərasimdə vəkilliyə qəbul üzrə ixtisas imtahanlarından müvəffəqiyyətlə keçən və icbari təlimi başa vuran namizədlərin andiçmə mərasimi olub, vəkilliyə namizədlər Azərbaycanın Dövlət Bayrağı önündə and içib, onlara vəsiqələr təqdim edilib.

Diqqətə çatdırılıb ki, 2018-ci ildən indiyədək ARVK üzvlüyünə qəbulla bağlı 12 yazılı test imtahanı keçirilib. Bu imtahanlarda iştirak edən 4808 namizəddən 1483 nəfər ixtisas imtahanlarında uğur qazanıb, icbari təlimi müvəffəqiyyətlə başa vuraraq vəkil andı içib. Bu gün vəkilliyə qəbulla bağlı ixtisas imtahanlarını və icbari təlimi uğurla başa vuran 9 namizəd vəkil andı içərək NMRVK-ya qəbul olunublar. Beləliklə, Azərbaycanda vəkillərin sayı 2463 nəfərə, Naxçıvanda isə 29 nəfərə çatıb.

Hazırda andiçmə mərasimində iştirak edən vəkillərdən 8 nəfəri kişi, 1 nəfəri isə qadındır. Bununla da Azərbaycanda qadın vəkillərin sayı 473 nəfər olmaqla ümumi vəkillərin 18 faizini təşkil etməkdədir.

Tədbirdə ARVK Rəyasət Heyətinin qərarına əsasən Naxçıvan Muxtar Respublikasında vəkilliyin inkişafına verdiyi töhfələrə görə F.Nəcəflinin ARVK-nın "Fəxri vəkili" adı ilə təltif olunması üzrə diplom və rəmzi vəkil mantiyası Prezidentin səlahiyyətli nümayəndəsinə təntənəli surətdə təqdim olunub. Həmçinin Fuad Nəcəfli "Azərbaycan vəkilliyinin 100 illiyi" yubiley döş nişanı ilə təltif edilib, ona gələcək fəaliyyətində uğurlar arzulanıb.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi çıxış edərək 1993-cü ildə Ulu Öndərin xalqın istəyi ilə Azərbaycana qayıdışı və islahatların aparılması, müstəqilliyimizin təhlükə altına düşməsinin qarşısını alması, xalqımız üçün misilsiz xidmətlər göstərməsi barədə vurğulayıb. O, Ulu Öndərin 1999-cu il 17 iyun tarixli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimlərinin sayının 14 nəfər müəyyən olunduğunu və 2000-ci ilin sentyabrından 2003-cü ilin yanvarınadək məhkəmə hakim heyəti ilə tam komplektləşdirildiyini xatırladıb.

Sədr bildirib ki, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən məhkəmələrin fəaliyyətinin müasir tələblər səviyyəsində təşkil olunmasında muxtar respublikada hüquq institutlarının inkişafı haqqında Azərbaycan Prezidentinin 2006-cı il 2 noyabr tarixli Fərmanının böyük rolu olub, Muxtar Respublikasında hakimlərin, məhkəmə aparatı işçilərinin keyfiyyətli və səmərəli fəaliyyət göstərməsi üçün zəruri şərait yüksək səviyyədə təmin edilir.

Naxçıvan Muxtar Respublikasının prokuroru Sənan Paşayev çıxışında 2022-ci ilin sonları 2023-cü ilin əvvəlindən başlayaraq muxtar respublikada digər təsisatlarla yanaşı, hüquq təsisatlarında da əhəmiyyətli struktur və kadr islahatlarının həyata keçirildiyini, bu islahatların əsas məqsədi şəffaflığın artırılması, insan hüquq və azadlıqlarının daha operativ və səmərəli şəkildə qorunması, daha çevik idarəçilik mexanizminin formalaşdırılmasına yönəldiyini vurğulayıb. O bu istiqamətdə artıq müsbət nəticələr əldə edilməkdə olduğunu və artıq muxtar respublikada sabit istintaq təcrübəsi, məhkəmə təcrübəsi formalaşdığını bildirib. Təxminən, bir il əvvəl məhz Vəkillər Kollegiyasının təşkil etdiyi tədbirdə müzakirə olunan məsələlərlə bağlı müsbət addımlar atıldığını təqdirəlayiq hal hesab edən Sənan Paşayev muxtar respublikada vəkillərin sayının artırılmasının, yeni vəkil bürolarının yaradılmasının təmin edildiyini nəzərə çatdırıb. Bu da digər sahələrlə yanaşı, cinayət mühakimə icraatında şəxslərin operativ şəkildə vaxtında və daha etibarlı hüquqi yardımla əhatə olunmasına imkan yaradıb.

Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Hüseyn Səfərov çıxışında Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinin Naxçıvanın inkişafı ilə sıx vəhdət təşkil etdiyini, Ümummilli Liderin fəaliyyətinin bütün dövrlərində doğma diyara



xüsusi diqqətlə yanaşdığını, onun hərtərəfli inkişafı naminə əvəzsiz xidmətlər göstərdiyini vurğulayıb.

Bu gün ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasının Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə özünün yeni müasir inkişaf dövrünü yaşadığını bildirən nazir müavini bütün sahələrdə mütərəqqi islahatların həyata keçirildiyini dilə gətirib.

ARVK-nın tarixinə, fəaliyyətinə, son illər görülən işlərinə, o cümlədən vəkillik institutunun bugünkü inkişaf dövrünə toxunan Hüseyn Səfərov Ədliyyə Nazirliyi ilə Kollegiya arasında qarşılıqlı fəaliyyətin uğurla həyata keçirildiyini qeyd edib. O, Ədliyyə Akademiyasında vəkillərin və vəkilliyə namizədlərin hazırlanması, ixtisasının artırılması, paytaxtda və bölgələrdə vətəndaşlar, eləcə də penitensiar müəssisələrdə saxlanılan şəxslər üçün Qadın Vəkillər Alyansı və digər vəkil bürolarının vəkillərinin iştirakı ilə ödənişsiz hüquqi yardım aksiyalarının keçirilməsinin səmərəli əməkdaşlığın əyani göstəricisi olduğunu nəzərə çatdırıb.

Eyni zamanda mərasimdə "Elektron vəkillik" Komitəsinin sədri Nihad Əliyev "Elektron vəkil orderi" və elektron müqavilələrin izahlı təqdimatını edib. Komitənin üzvü İlham Hüseynov isə elektron vəkil sorğusuna digər qurumların inteqrasiyası və qanunvericilikdəki dəyişikliklə bağlı məlumat verib. Həmçinin "Pro Bono ChatBot" süni intellektin təqdimatı olub.

Qeyd edək ki, ARVK-nın sədri Anar Bağırovun başçılıq etdiyi nümayəndə heyətinin tərkibində sədr müavinləri – Pərviz Ələkbərov, Şahmar Məmmədov, Rəyasət Heyətinin üzvləri – Dilarə Əfrasiyabova, Lalə Nağıyeva, İlhamə Həsənova, Elçin Usub, Azər Quliyev, Baş katib Bayram Orucov, Vəkillərin İntizam Komissiyasının sədri Cavid Alıyev, "Elektron vəkillik" Komitəsinin sədri Nihad Əliyev, həmin Komitənin üzvü İlham Hüseynov, o cümlədən III "Yüksəliş" müsabiqəsinin qalibi İ.Məmmədzadə təmsil olunub.

# Naxçıvanda Kitab festivalı keçirilir

Mayın 8-də Naxçıvan şəhərindəki “Saat Meydanı” Turistik İstirahət Mərkəzində Kitab festivalı öz işinə başlayıb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli festivalın açılış tədbirində iştirak edib.

Məlumat verilib ki, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101, Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinə həsr olunan sərgidə 900 çeşiddə, 70 minə yaxın kitab və digər nümunələr nümayiş etdirilir.

Səlahiyyətli nümayəndə Naxçıvan Dövlət Universiteti, AMEA Naxçıvan Bölməsi və Naxçıvan Müəllimlər İnstitutu üçün ayrılmış stendlərdə Naxçıvanda fəaliyyət göstərən alim və pedaqoqlar tərəfindən nəşr olunmuş tədqiqat əsərləri, dərslik və dərs vəsaitləri, eləcə də qəzet və jurnallara baxıb, muxtar respublikanın müxtəlif sahələri ilə bağlı işıq üzü görmüş tədqiqat əsərlərini yüksək qiymətləndirib.

“TEAS Press” Nəşriyyat Evində çap olunan yüzlərlə adda dünya klassiklərinin orijinal dildə və tərcümə olunmuş əsərləri, yerli və xarici bədii ədəbiyyat nümunələri, uşaq ədəbiyyatı, dərslik və dərs ləvazimatları festival iştirakçılarının böyük marağına səbəb olub. Nəşriyyat Evinin Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr etdiyi stend də xüsusi diqqəti cəlb edir. Burada dahi liderin mənalı ömür yoluna işıq tutan onlarla yerli və xarici dildə kitablar nümayiş etdirilir. Baxış zamanı səlahiyyətli nümayəndə Fuad Nəcəfliyə “Heydər Əliyev: yaşayan tarix” kitabı hədiyyə olunub.

Səlahiyyətli nümayəndə festivalda iştirak edən tanınmış yazıçılar Elçin Əzimli, Raqif Raufoğlu, Varis və Mürşüd İsmayılzadə ilə söhbət edib, onlara yeni yaradıcılıq uğurları arzulayıb. Yazıçılar festivalı yüksək qiymətləndirib, Naxçıvan oxucusunun kitaba olan marağını xüsusilə vurğulayıb, daha çox tarixi romanlara və şəhidlərimizlə bağlı nəşr olunan kitablara üstünlük verildiyini diqqətə çatdırıblar. Bildirilib ki, son zamanlar Vətən müharibəsi iştirakçılarının qəhrəmanlıqları və şanlı qələbəmizlə







bağlı dəyərli kitablar ərsəyə gəlir və şəhid ailələrinə hədiyyə olunur. Yazıçı-jurnalist Raqif Raufoğlu qələmə aldığı “Ustad”, Elçin Əzimli “Çağrı” və “Dan ulduzu”, Varis “Uzaqdan gələn yağış”, Mürşüd İsmayılzadə “Zəfəri yaşayanlar, yaşadanlar”, “Əjdaha qardaşlığı” və digər kitablarını səlahiyyətli nümayəndəyə təqdim ediblər.

Fuad Nəcəfli festivalda iştirak edən balaca kitabsevərlərə kitablar hədiyyə edib, onlarla xatirə fotoları çəkdirib.

Festivalda Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, Ədliyyə və Mədəniyyət nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə istedadlı qadınların, sağlamlıq imkanları məhdud şəxslərin, məhkumların və digər kateqoriyadan olan şəxslərin yaradıcılığı, əl işləri və sənətkarlıq nümunələrinin sərgi-satışı təmin olunub. Səhiyyə Nazirliyi isə festival iştirakçıları üçün maarifləndirici guşə təşkil edib. Həmçinin iştirakçılar Ekologiya və Təbii Sərvətlər Nazirliyi üçün ayrılmış stenddə muxtar respublikanın zəngin təbii sərvətlərindən nümunələr, onlar haqqında çap məhsulları, Naxçıvanın ekosisteminin tədqiqi və emalında istifadə olunan cihazlarla tanış ola bilərlər.

Naxçıvanda brayl əlifbası ilə nəşr olunmuş kitab və digər çap vəsaitləri ilə tanış olan səlahiyyətli nümayəndəyə məhdud fiziki imkanlı gənclərin təhsili və cəmiyyətə inteqrasiyası istiqamətində görülən işlər barədə məlumat verilib. Bildirilib ki, bu kateqoriyadan olan şəxslər üçün xüsusi fərdi və inklüziv tədris imkanları yaradılıb, bu günədək mindən artıq brayl əlifbası ilə dərslik, bədii ədəbiyyat və jurnallar nəşr etdirilib.

Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası “Heydər Əliyev – 101”, “Naxçıvan Muxtar Respublikası – 100”, “Yaşıl dünyamız – sağlam gələcəyimiz” və “Uşaqların nağıl dünyası” başlıqlı sərgilərlə, “SEVİNC – Milli-Mənəvi Dəyərlər və Müasir Çağırışlarla Sintezin İnkişafına Dəstək” İctimai Birliyi isə milli dəyərlərimizi əks etdirən nümunələrlə festivalda təmsil olunub.

Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbin VI sinif şagirdi Sevgi Abdullazadənin Naxçıvan Muxtar Respublikasının 100 illiyi münasibətilə “Kitablardan qazandığım dostlarım” adlı kitab və karikatura sərgisi festivala özünəməxsus rəng qatıb. Səlahiyyətli nümayəndə Sevginin rənglər dünyasına maraqla baxıb, gənc istedadın yeni ərsəyə gətirəcəyi rəsm tablosuna ilk rəngi çəkib, onunla xatirə fotosu çəkdirib.

Gənc könüllülər Kitab festivalının təşkilində fəal iştirak edib, kitab və mütaliə ilə bağlı fləş-mob təqdim ediblər.

Könüllülərin “Kitab hədiyyə et, dəyər qat” aksiyası ilə tanış olan Fuad Nəcəfliyə məlumat verilib ki, layihə çərçivəsində iştirakçıların təqdim etdikləri kitablar cəzaçəkmə müəssisəsi, internat məktəbi və Ahıllar Evinə təqdim olunacaq.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi, Naxçıvan Şəhər İcra Hakimiyyəti, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi və “TEAS Press” Nəşriyyat Evinin təşkilatçılığı ilə keçirilən Kitab festivalı mayın 11-dək davam edəcək. Festival çərçivəsində tanınmış şair və yazıçılar Elçin Əzimli, Raqif Raufoğlu, Varis, Mürşüd İsmayılzadə, Elxan Elatlı, Aqşin Yenisey, Zahid Xəlil, Aysel Şıxlının iştirakı ilə maraqlı görüşlər, imza saatları, panel müzakirələri keçiriləcək, müxtəlif istiqamətlərdə maarifləndirmə aksiyaları təşkil olunacaq, uşaqlar üçün əylənərək öyrənmə imkanı yaradılacaq.

“APF Group” MMC, “Ləzzət Qrup” MMC, “Güvən İnşaat”, “Sürət Kargo” və “İbesta”nın sponsorluğu, AZƏRTAC Dövlət İnformasiya Agentliyi, Naxçıvan televiziyası, Real TV, “Şərq qapısı” qəzeti, “Nuhçıxan” və “Report” informasiya agentliklərinin media tərəfdaşlığı ilə keçirilən kitab sərgisində iştirak ödənişsizdir. Festival iştirakçıları endirimli kitablardan faydalana və yaradıcı insanların müxtəlif əl işləri və beyin məhsulları ilə tanış ola bilərlər.

# “Heydər Əliyev və Naxçıvan” mövzusunda konfrans keçirilib





Mayın 10-da, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümündə Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi münasibətilə “Heydər Əliyev və Naxçıvan” mövzusunda konfrans keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Ulu Öndərimizin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, abidə önünə güllər düzüb, xatirəsinə ehtiramlarını bildiriblər.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında keçirilən konfransda Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Ümummilli Liderin dövlətçilik fəaliyyətindən danışarkən böyük ömrün 1990-1993-cü illəri əhatə edən Naxçıvan dövründən xüsusilə bəhs edib. Vurğulayıb ki, həmin illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərən dahi şəxsiyyət, bütövlükdə, müstəqil dövlətçiliyimizin əsaslarını işləyib hazırlayıb. Belə ki, 1990-cı ilin 17 noyabrında Ulu Öndərin sədrliyi ilə keçirilən Naxçıvan MSSR Ali Sovetinin sessiyasında “Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında”, “Naxçıvan Muxtar Respublikası Ali Dövlət hakimiyyəti orqanı haqqında”, “Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında” qərarlar qəbul edilib, bu qərarlarla muxtar respublikanın adından “sovet”, “sosialist” sözləri çıxarılıb, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsdiq edilib. Həmin ilin 21 noyabrında isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Heydər Əliyevin işləyib hazırladığı “1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında” Qərar qəbul edib. Görkəmli dövlət xadimi 1991-ci ilin 30 avqustunda Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında “Azərbaycanın müstəqillik Bəyannaməsi” ilə bağlı çıxış edib, həmin ilin 16 dekabrında Ali Məclisin 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü haqqında tarixi Qərarı imzalanıb, 1992-ci il avqustun 18-də isə Rusiyanın Naxçıvanda yerləşən 75-ci motoatıcı diviziyasının əmlakı tamamilə milli ordunun briqadasına təhvil verilib və şəxsi heyət muxtar respublikadan çıxarılıb. Ulu Öndərin



Naxçıvan dövrü fəaliyyətinin ən mühüm hadisəsi isə 1992-ci il noyabrın 21-də ölkəmizin dünəninin, bu gününün və gələcəyinin partiyası olan Yeni Azərbaycan Partiyasının təsis konfransını keçirməsi olub.

Fuad Nəcəfli qeyd edib ki, Ümummilli Liderin hakimiyyətə qayıtdığı 1993-cü ilin 15 iyun günü Azərbaycan xalqının tarixinə “Milli Qurtuluş Günü” kimi yazılıb. Bu dövrdən etibarən Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanın sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə yeni inkişaf strategiyasının təməlini qoyub. İqtisadiyyatın bütün sahələrində aparılan düzgün və səmərəli siyasət nəticəsində ölkədə ümumi daxili məhsul 1996-2002-ci illərdə 71 faiz artıb, “Əsrin müqaviləsi”nin praktiki cəhətdən reallaşması və bir çox sahələrə sərmayələrin yönəldilməsi sənayedə dirçəlişin təməlini qoyub. 1993-cü ildən başlayaraq kənd təsərrüfatı sahəsi yenidən dövlət tərəfindən həyata keçirilən iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevrilib. 1993-2002-ci illərdə istehsal və qeyri-istehsal sahələrinin inkişafı üçün mühüm əhəmiyyət kəsb edən 70-dən çox yeni obyekt inşa edilib, bütün maliyyə mənbələri hesabına ölkə iqtisadiyyatının və sosial sahələrin inkişafına 8,2 milyard manat investisiya yönəldilib, 2002-ci ildə əsas kapitala 1993-cü ilə nisbətən 36,3 dəfə, dövlət büdcəsinin bütün mənbələrdən daxil olan gəlirləri 1993-cü ilə nisbətən 85,1 dəfə artıb, 74 mindən artıq yeni mənzil, 82 yeni ümumtəhsil məktəbi istifadəyə verilib.

“Bu gün Azərbaycan dünyada sürətlə və dinamik inkişaf edən dövlətlərdən biridir. Ölkənin iqtisadi qüdrətinin artması onun müstəqil siyasət yeritməsinə, əhalinin rifah halının ildən-ilə yüksəlməsinə imkan yaradır. İkinci Qarabağ müharibəsində qazanılmış tarixi Qələbə güclü dövlət-güclü ordu konsepsiyasının və xalq-Lider birliyinin təntənəsidir”, – deyən səlahiyyətli nümayəndə diqqətə çatdırıb ki, Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Azərbaycanı böyük Qələbəyə və uğurlara çatdırmaqla ata vəsiyyətini layiqincə yerinə yetirib. Regionun gündəliyini bu gün Azərbaycan diktə edir. Dünya gücləri Azərbaycanın yaratdığı yeni reallıqlarla hesablaşırlar. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasına uyğun olaraq nəhəng transmilli nəqliyyat və enerji layihələri həyata keçirən Azərbaycanın bu təşəbbüsləri dünyanın aparıcı dövlətləri tərəfindən dəstəklənir, ölkəmizə iqtisadi-siyasi dividentlər qazandırır. Azad olunmuş torpaqlarımızda genişmiqyaslı bərpa-quruculuq işləri heç kəsdən yardım alınmadan Azərbaycanın öz imkanları hesabına sürətlə davam etdirilir, Böyük Qayıdış Proqramı çərçivəsində uğurla addımlar atılır.

Fuad Nəcəfli sonda Ümummilli Liderimiz Heydər Əliyevin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib, çıxışını dahi şəxsiyyətin ***“Nə qədər Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam”*** fikirləri ilə bitirib.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov çıxışında Ulu Öndər Heydər Əliyevin atdığı qlobal ölçülü addımlar, ölkənin mövcudluğunun təminatı, onun dünya enerji balansında mövqeyinin formalaşması, mühüm tranzit layihələrdə yer alması, geopolitik mövqeyinin müəyyənləşməsindəki misilsiz xidmətlərindən bəhs edib. Bildirib ki, Ulu Öndərin müəyyən etdiyi kurs həm ölkəmizin, həmçinin Naxçıvan Muxtar Respublikasının perspektivlərini müəyyən edir, indi bizi bütöv bir ölkə kimi qlobal müstəvidə aparıcı qüvvəyə çevirir və mövqeyimiz qlobal səviyyədə gündəliyi müəyyən edir. Heydər Əliyev siyasi kursunun davamçısı möhtərəm cənab Prezidentin təşəbbüsü ilə formalaşmış

*Ardı 7-ci səhifədə*

Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu bu günlərdə "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda 6-cı yığıncağını keçirib, 110-dan artıq ölkənin aparıcı nümayəndələrini, ziyalıları, siyasətçiləri, qərar qəbul edən liderləri, media nümayəndələrini, vətəndaş cəmiyyətinin nümayəndələrini, dini nümayəndələri 2008-ci ildən etibarən formalaşmış "Bakı prosessinə" cəlb edib, fərqli etnik, mədəni, dini və dil mənşəyi olan insanları bir araya gətirib, qarşılıqlı anlaşmaya doğru açıq və hörmətcil mübadilə üçün platforma formalaşdırıb, dialoq üçün münbit şərait yaradıb. Şübhəsiz ki, Azərbaycan mədəni müxtəliflik baxımından bu gün dünyaya nümunədir və onun əsas təməlləri məhz Ulu Öndərin bütün dövrlərdəki siyasi rəhbərliyi zamanı müəyyən etdiyi siyasətin təməl mərkəzində dayanan məsələ olub.

Ulu Öndərin siyasi kursunun bir başqa motivi bu günlərdə bizi başqa beynəlxalq platformalarda söz sahibinə çevirib. Əlbəttə ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un bütün ölkələrin yekdil qərarı ilə ölkəmizdə keçirilməsindən söhbət gedir. Məhz həmin siyasətin növbəti nəticəsidir ki, möhtərəm cənab Prezident Qarabağ və Şərqi Zəngəzurla yanaşı, Naxçıvanı da "yaşıl enerji zonası" elan edib. Bu da əsası Ulu Öndərin qoyduğu ekoloji təmiz strategiyanın növbəti addımıdır. Əlbəttə, əlverişli coğrafi mövqedə yerləşən Naxçıvanın münasib iqlim şəraiti burada bərpa olunan enerji istehsalı üçün yaxşı imkanlar yaradır. Bu da muxtar respublikanın region üçün strateji əhəmiyyətini getdikcə artırır. Bütün bunlar istilik elektrik stansiyalarında yandırılan böyük miqdarda yanacağa qənaətlə yanaşı, ətraf mühitə atılan zərərli tullantıların miqdarını da xeyli azaldacaq. Artıq bu istiqamətdə də proqram müəyyənləşdirilib, bir sıra anlaşma sənədləri formalaşıb.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev yeni faktlar, yeni reallıqlar təşkil edən "Heydər Əliyev və Naxçıvan" mövzusunu Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərinin çoxtərəfli öyrənilməsi baxımından yüksək qiymətləndirib. Bildirib ki, məhz Ulu Öndərimizin həyat fəaliyyətinin Naxçıvan dövrü, bütövlükdə, müstəqil Azərbaycanın taleyüklü dövrünü əhatə edir. Dahi rəhbərin həmin illərdə qəbul etdiyi tarixi qərarlar Azərbaycanın gələcək inkişafına, mədəni-tarixi dəyərlərimizin yaşadılmasına, daha da möhkəmləndirilməsinə hesablanmış mühüm addımlar idi. Belə çətin bir dövrdə qəbul edilmiş bu qərarlar yalnız liderlərə məxsus cəsarətli addımlar idi. Ümummilli Liderimiz şəxsi nüfuzu, yüksək liderlik qabiliyyəti ilə Azərbaycanı məhv olmaqdan xilas etdi, dünyada söz sahibi etdi. Məhz bu tarixi xidmətləri ilə Heydər Əliyev həm siyasi lider, həm dövlət başçısı, həm də milli lider kimi adını əbədi olaraq Azərbaycan tarixinə yazdırıb.

Konfransın davamında Naxçıvan televiziyasının hazırladığı "Heydər Əliyev və Naxçıvan" filmi təqdim olunub.

## Naxçıvanda əlilliyi müəyyən olunmuş 12 şəxsə avtomobillər təqdim edilib






Mayın 10-da, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümündə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi və hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əlilliyi müəyyən olunmuş 12 şəxsə avtomobillər təqdim olunub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli avtomobillərlə təmin olunan şəxslərlə görüşüb, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü, Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi və ordumuzun qazandığı tarixi qələbə münasibətilə təbriklərini çatdırıb.

Səlahiyyətli nümayəndə qeyd edib ki, Azərbaycan Birinci və İkinci Qarabağ müharibələrində haqq savaşına çıxıb. Şanlı ordumuzun qüdrəti sayəsində bu haqq savaşımız böyük qələbə ilə başa çatıb. Hər bir Azərbaycan vətəndaşının böyük qürur hissi ilə qeyd etdiyi bu qələbəni Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Müzəffər Ali Baş Komandanımıza, qüdrətli Azərbaycan Ordusuna, qəhrəman şəhid və qazilərimizə borcluyuq.

Şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyən səlahiyyətli nümayəndə bildirib ki, hər zaman şəhid ailələri, qazilər və müharibə veteranları dövlətin qayğısı ilə əhatə olunub və bundan sonra da onlar bu qayğıdan kənarda qalmayacaqlar. Bu işlərin davamı olaraq bu gün ərazi bütövlüyümüz, müstəqilliyimiz, konstitusiya quruluşunun müdafiəsi və hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar əlilliyi müəyyən olunmuş 12 nəfər avtomobillə təmin olunur. Bu istiqamətdə silsilə tədbirlər bundan sonra da davam etdiriləcək.

Sonra səlahiyyətli nümayəndə Fuad Nəcəfli avtomobillərin açarlarını təqdim edib.

Əlilliyi müəyyən olunmuş şəxslər və onların ailə üzvləri göstərilən diqqət və qayğıya görə ölkə Prezidentinə minnətdarlıqlarını bildiriblər.

Səlahiyyətli nümayəndə sonda təqdim olunan avtomobillərə baxıb, avtomobillə təmin olunan şəxslərin hər birinə cansağlığı arzulayıb.

## Ümummilli Liderin doğum günündə Naxçıvanda aztəminatlı ailələrə sovqatlar təqdim olunub

Ümummilli Lider Heydər Əliyev vətəndaş rifahının təminatını dövlətin ali məqsədlərindən biri kimi müəyyən edib, dövlət sosial siyasət modelinin əsasını qoyub. Bu siyasəti uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqəti və tapşırığı ilə ölkəmizdə davamlı sosial layihələr icra olunur. Əlamətdar günlərdə və bayramlarda mütəmadi olaraq aztəminatlı ailələrə sovqatların çatdırılması da belə sosial layihələrin mühüm tərkib hissəsidir.

Mayın 10-da Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə Naxçıvanda 1200 aztəminatlı ailəyə sovqatlar təqdim olunub.

Azərbaycan Respublikası Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev, konfederasiyanın sədr müavini, Naxçıvan



Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev sovqatın təşkili ilə bağlı Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə məlumat veriblər.

Bildirilib ki, Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında yaşayan 1200 aztəminatlı ailə üçün gətirilmiş sovqatlar müxtəlif ərzaq məhsullarından ibarətdir.

Sovqat daşıyan avtomobillər təyinatı üzrə ünvanlara yola salınıb.

## Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan peşə təhsili müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan peşə təhsili müəssisələrinin fəaliyyətinin optimallaşdırılması və idarəetməsinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbi publik hüquqi şəxsi və Naxçıvan Şəhər Peşə Liseyi birləşdirilsin və onların bazasında "Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzi" publik hüquqi şəxsi yaradılsın.

2. Şərur Texniki Peşə və Sürücülük Məktəbi "Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində Şərur Peşə Liseyi" adlandırılsın və publik hüquqi şəxsə çevrilsin.

3. Ordubad Texniki Peşə və Sürücülük Məktəbi "Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində Ordubad Peşə Liseyi" adlandırılsın və publik hüquqi şəxsə çevrilsin.

4. Müəyyən edilsin ki:

4.1. bu Fərmanın 1-3-cü hissələri ilə yaradılan publik hüquqi şəxslərin maliyyələşdirilməsi "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 7.2-ci maddəsinə əsasən dövlət və ya yerli büdcələrdən ayrılan vəsaitlərdən, fəaliyyət istiqamətlərinə uyğun görülən işlərdən, göstərilən xidmətlərdən əldə edilən daxilolmalardan, ianələrdən, qrantlardan və nizamnamədə müəyyən edilmiş digər mənbələrdən daxil olan vəsaitlər hesabına həyata keçirilir.

5. Bu Fərmanın 1-3-cü hissələri ilə yaradılan publik hüquqi şəxslərin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

5.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə:

5.1.1. yenidən təşkili və ləğv edilməsi;

5.2. Nazirliyə:

5.2.1. bu Fərmanın 5.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin ("Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2.3-cü maddəsində nəzərdə tutulan inkişaf istiqamətlərinin müəyyən edilməsi prosesinin Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırılmaqla) həlli;

5.3. Nazirlik:

5.3.1. bu Fərmanın 1-3-cü hissələri ilə yaradılan publik hüquqi şəxslərin nizamnamələrini, strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əmək haqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla 3 ay müddətində təsdiq etsin;

5.3.2. Fərmanın 1-3-cü hissələri ilə yaradılan publik hüquqi şəxslərin nizamnamələrinin təsdiq edildiyi tarixdən 3 (üç) gün müddətində həmin hüquqi şəxslərin dövlət qeydiyyatına alınması ilə bağlı "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq tədbirlər görsün;

5.3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

6.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

6.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin edib iki ay müddətində Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin;

6.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 7 may 2024-cü il*

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatı barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 34-cü maddəsinin III hissəsinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 23.1-ci və 23.4-cü maddələrinə əsasən Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatını müzakirə edərək, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatı nəzərə alınsın.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 8 may 2024-cü il*

## "Əməkdar müəllim" fəxri adının verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq, Heydər Əliyev adına tam orta məktəbin 20 illiyi münasibətilə **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında təhsil sahəsində səmərəli fəaliyyətlərinə görə:

Əhmədova Nailə Sahib qızı
Əliyeva Məhsəti Saleh qızı
Quliyeva Zülfiyyə Vaqif qızı
Məmmədov Faur Bəhrəm oğlu
Tarışova Xublar Yəhya qızına – **"Əməkdar müəllim"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 8 may 2024-cü il*

# Naxçıvanda Yeni Azərbaycan Partiyası veteranlarının gənclərlə görüşü keçirilib



Mayın 6-da Ümummilli Lider Heydər Əliyevin xatirəsinə və Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunmuş “Heydər Əliyev irsinin öyrənilməsi: Yeni Azərbaycan Partiyası veteranlarının gənclərlə görüşü” mövzusunda tədbir keçirilib.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə keçirilən tədbirin iştirakçıları Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucalan abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.

Heydər Əliyev Muzeyini ziyarət edən qonaqlara məlumat verilib ki, muzeydə Ümummilli Liderin həyatı və fəaliyyəti ilə bağlı eksponatlar ehtiramla qorunur, tədqiq və təbliğ edilir.

Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında davam etdirilən tədbirdə gənclərin əl işlərindən ibarət sərgiyə baxış olub.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Ulu Öndər Heydər Əliyevi yaxından tanıyan, onun idarəçilik məktəbində inkişaf etmiş dövlət və ictimai xadimlərin iştirak etdiyi tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin salamlarını çatdırıb və tədbirin işinə uğurlar arzulayıb.

Tədbirin Naxçıvanın xüsusi yerini və onun Yeni Azərbaycan Partiyasının yaranmasındakı tarixi rolunu vurğulamaq baxımından əhəmiyyətli olduğunu deyən Samir Seyidəhmədli bildirib ki, Ulu Öndər Heydər Əliyevin mühüm xidmətləri sırasında bu gün sıralarında 730 mindən artıq üzvü birləşdirən Yeni Azərbaycan Partiyasının yaradılması dayanır. Partiyanın yaratdığı dəyərlər müasir Azərbaycanın inkişafında mühüm rol oynayır. Partiyanın üzvləri, xüsusilə qadınlar və gənclər cəmiyyətimizin inkişafında mühüm rol oynamağa davam etməlidirlər. Partiyanın qadın və veteran üzvlərinin fəaliyyəti, verdikləri töhfələr dövlətimizin inkişaf yolunda əvəzsizdir və onların səyləri bizim üçün daim ilham mənbəyidir. Ümummilli Lider Heydər Əliyev irsinin öyrənilməsi və təbliği işində əvəzsiz rolu olan partiya veteranlarının təcrübəsi, bilikləri və Heydər Əliyev ideyalarına sadiqliyi yeni nəsillər üçün örnək təşkil edir və bu dəyərlərin yaşadılmasında mühüm rol oynayır. Onlar gənclərin siyasi və ictimai həyatda fəal iştirak etmələrinə ilham verirlər.

Səlahiyyətli nümayəndənin müavini partiya veteranlarına tədbirdə iştirakına görə təşəkkür edib, Azərbaycanımız üçün atdıqları hər addımda uğurlar arzulayıb.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova çıxış edərək bildirib ki, tarixboyu Azərbaycanda baş verən siyasi proseslərin mərkəzində olan ulu Naxçıvan böyük bir irsə, misilsiz bir sərvətə malik olub. Bu diyarın yetirdiyi ən böyük şəxsiyyət isə bütün dünyanın ən böyük azərbaycanlısı olan Heydər Əliyevdir. Azərbaycan xalqı dahi liderimizin misilsiz xidmətlərini hər zaman minnətdarlıqla xatırlayacaq. Çünki müasir müstəqil Azərbaycanın dirçəlişi, qurtuluşu və inkişafı məhz onun adı ilə bağlıdır. Bahar Muradova vurğulayıb ki, Heydər Əliyev irsi üzərində qurulan prinsiplərin gənclərimiz tərəfindən mənimsənilməsi bu günümüz və gələcəyimiz üçün çox vacibdir. Bu baxımdan tədbiri yüksək qiymətləndirən komitə sədri rəhbərlik etdiyi qurum tərəfindən elan olunan layihənin ilk tədbirinin Naxçıvanda keçirildiyini və bu tədbirlərin ilboyu davam etdiriləcəyini bildirib.






Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının sədri Arif Rəhimzadə qeyd edib ki, Azərbaycanın yeni tarixinin 34 ili bilavasitə dahi lider Heydər Əliyevin adı ilə bağlıdır. Bu qısa dövr Azərbaycanın çoxəsrlik tarixində mühüm mərhələ təşkil edib, dövlətçiliyimizin və xalqımızın mənlik şüurunun formalaşmasında olduqca əhəmiyyətli rol oynayıb. Ümummilli Lider Heydər Əliyevin dühası, çox böyük nüfuzu və insanları öz arxasınca aparmaq bacarığı sayəsində Azərbaycanın başının üstünü almış təhlükələr aradan qaldırılıb, Azərbaycan inkişaf yoluna çıxıb. Bu gün Heydər Əliyev ideyalarının işığında ölkəmiz bütün sahələrdə, o cümlədən dünya birliyinin layiqli üzvü kimi beynəlxalq müstəvidə möhtəşəm uğurlar qazanır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublikası Təşkilatı sədrinin müavini – Aparat rəhbəri Anar İbrahimov çıxışında qeyd edib ki, tarix göstərdi ki, Ulu Öndər Heydər Əliyevin Naxçıvan dövrü, bütövlükdə, Azərbaycan dövlətçiliyinin qorunmasında, ona yeni nəfəs, ümid verilməsində müstəsna əhəmiyyət kəsb edib. Onun xalqının potensialına sarsılmaz inamı və mürəkkəb siyasi mənzərələri idarə etmək bacarığı bu gün oxşar çağırışlarla mübarizə aparan gənc liderlər üçün ilham mənbəyi kimi xidmət edib. Vurğulanıb ki, Ümummilli Lider Heydər Əliyevin ədalət, müstəqillik, Azərbaycançılıq və tərəqqi prinsiplərinə sarsılmaz sadiqliyi yeniləmə, inandırma gücünün möhtəşəm nümunəsidir. Çünki o, ən ağır zamanda milləti gələcək uğurlara inandırıb, səfərbər edə bilib. Xalqımızın tarixinin ən çətin dövrlərində haqqın və ədalətin, yəni Heydər Əliyevin, onun qurduğu Yeni Azərbaycan Partiyası veteranlarına təşəkkür edən Ali Məclis sədrinin müavini Ulu Öndərimizin ***“Yeni Azərbaycan Partiyasına xidmət etmək dövlətə, xalqa xidmət etmək deməkdir”*** fikrini diqqətə çatdırıb. Qeyd edib ki, zaman da sübut etdi ki, partiya veteranlarının seçimi, mövqeyi düzgün idi. Bütövlükdə, xalqımızın vaxtında göstərdiyi fədakarlıq və cəsarət Azərbaycanın daha parlaq gələcəyinə yol açdı və Ümummilli Lider Heydər Əliyevin həyatının mənası olan yeni, müstəqil Azərbaycanın qurulması ilə nəticələndi. Anar İbrahimov çıxışını Prezident cənab İlham Əliyevin ***“Azərbaycanı daha qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir”*** çağırışı ilə yekunlaşdırıb.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək bildirib ki, Ulu Öndərimiz yüksək vəzifələrdə çalışdığı illərdə heç vaxt Naxçıvanı unutmayıb, qədim diyarı daim diqqətdə saxlayıb. Azərbaycanda ilk dəfə hakimiyyətə gəldiyi dövrdə ölkəmizin, o cümlədən Naxçıvanın inkişafı, gələcəyi ilə bağlı çox mühüm qərarlar qəbul edib. Bildirib ki, tədbirin təşkil olunmasında da məqsəd Ümummilli Lider Heydər Əliyevin zəngin və çoxşaxəli siyasi irsinin, milli ideyasının gənc nəslin inkişafında örnək olaraq təşviq edilməsidir.

Çıxışların ardından tədbir “Ulu Öndər irsi gələcək nəsil üçün yol xəritəsi”, “Azərbaycanın ictimai-siyasi proseslərində gənclərin iştirakı” adlı panel iclası ilə davam edib. Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanovanın moderatorluq etdiyi paneldə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi sədrinin müavini, Qərbi Azərbaycan İcmasının sədr müavini Hikmət Məmmədovun, Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, Nəsimi rayonu Ağbirçəklər Cəmiyyətinin sədri Zərifə Quliyevanın, Əməkdar jurnalist, siyasi elmlər üzrə fəlsəfə doktoru Qahirə Hüseynovanın, Naxçıvan Dövlət Universitetinin Kompüter mühəndisliyi ixtisası üzrə III kurs tələbəsi, Heydər Əliyev təqaüdçüsü Nilgül Qənbərlinin Ulu Öndər Heydər Əliyevlə bağlı xatirələri və çıxışları dinlənilib, dahi rəhbərin gənclərə göstərdiyi qayğıdan danışılıb, tədbir iştirakçılarının sualları cavablandırılıb.

Tədbir Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanın yekun nitqi ilə başa çatıb.

# Ali Məclisin plenar iclasında hökumətin hesabatı dinlənilib



Mayın 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yaz sessiyasının növbəti plenar iclası keçirilib.

İclasın gündəliyinə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatı daxil edilib. Bildirilib ki, 3 may 2024-cü il tarixdə elan olunmuş gündəlikdəki ikinci məsələ – Naxçıvan Muxtar Respublikası Baş nazirinin Nazirlər Kabinetinin üzvlüyü ilə bağlı təqdimatına baxılması Naxçıvan Muxtar Respublikası Baş nazirinin 2024-cü il 7 may tarixli məktubu ilə təqdimat geri götürüldüyündən gündəlikdən çıxarılıb.

Gündəlik təsdiq olunduqdan sonra Ali Məclis sədr müavini Anar İbrahimov qeyd edib ki, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti hər il Ali Məclisin yaz sessiyasında Nazirlər Kabinetinin əvvəlki il üzrə fəaliyyəti haqqında hesabat verir. Nazirlər Kabinetinin hesabatı Ali Məclisin Daxili Nizamnaməsinə əsasən Ali Məclisin iclasında baxılmamışdan əvvəl Ali Məclisin komitələrinə rəy verilməsi üçün təqdim edilib, 23-26 aprel 2024-cü il tarixlərdə keçirilmiş komitə iclaslarında komitələrin sədr və üzvlərinin, həmçinin Ali Məclis və Nazirlər Kabineti aparatının və aidiyyəti üzrə mərkəzi icra hakimiyyəti orqanlarının nümayəndələrinin iştirakı ilə baxılıb. Ali Məclisin komitələri tərəfindən verilmiş rəylərdə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatı irad və təkliflər nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə tövsiyə olunub.



Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatını təqdim edib. Ali Məclisin komitə və plenar iclaslarında bir çox mövzularla bağlı müzakirələrin aktiv şəkildə aparıldığını deyən Baş nazir müzakirələrin yüksək səviyyədə aparılmasına və səmərəli təşkilinə görə hökumət üzvləri adından minnətdarlıq edib. Baş nazir Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatının təqdim edilməsinin hökumətlə Ali Məclis arasında səmərəli və işgüzar əməkdaşlığa böyük fayda verdiyini, eyni zamanda hökumətin gördüyü işləri deputatlarla birgə müzakirə etməyə və qarşıda duran vəzifələri dəqiqləşdirməyə şərait yaratdığını diqqətə çatdırıb. Bildirib ki, muxtar respublikada həyata keçirilən islahatlar, cənab Prezidentin müvafiq fərmanı ilə yeni idarəetmə institutunun yaradılması, bütün sahələrdə əhalinin üzləşdiyi çətinliklərin, problemlərin həllini tapmasına imkan yaradıb. İnkişafın təmin edilməsi, ictimai, sosial və iqtisadi vəziyyətin yaxşılaşdırılması məqsədilə müvafiq fəaliyyətlər həyata keçirilməkdədir. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı muxtar respublika əhalisinə göstərilən növbəti diqqət və qayğının əyani ifadəsidir.

Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli, Humanitar siyasət komitəsinin sədri Elman Cəfərli, Sosial siyasət komitəsinin sədri Yeganə Məmmədova və İqtisadi siyasət

Ardı 9-cu səhifədə

komitəsinin sədri İsa İsayev təmsil etdikləri komitələrin rəylərini diqqətə çatdırıblar.

Sonra hesabat məruzəsi ətrafında müzakirələr aparılıb.

Müzakirələrdə komitə sədrləri İsmayıl Qəribli, Elman Cəfərli, Yeganə Məmmədova, İsa İsayev, deputatlardan Fərəc Fərəcov, Ehtimad Məmmədov, Vüqar Abbasov, Aidə Allahverdiyeva, Arif Qasımov və Nüsrət Həsənov çıxış edib, hesabatla bağlı təklif və tövsiyələrini bildiriblər. Deputatlar, həmçinin seçicilərin qaldırdıqları məsələləri hökumət üzvlərinin diqqətinə çatdırıblar.

Ali Məclisin sədr müavini Anar İbrahimov bildirib ki, hökumətin hesabatı, bütövlükdə, prosedur yenidir. Bu fəaliyyət, ümumilikdə, muxtar respublika, burada yaşayan vətəndaşlar üçün faydalı olacaq. Eyni zamanda möhtərəm Prezident cənab İlham Əliyevin qarşıya qoyduğu əsas vəzifə – şəffaflığın təmin edilməsi, vətəndaşa yönəlik siyasət, hesabatlılıq və məsuliyyət üçün vacibdir. İnanıram ki, bu ilk təşəbbüs sonradan daha keyfiyyətli işlər üçün möhkəm əsas yaradacaq, bu həm də Ali Məclisin hökumətlə birlikdə seçicilər qarşısında hesabatıdır.

Ali Məclisin sədr müavini deyib ki, ötən ilin əsas siyasi hadisəsi ölkə Prezidenti tərəfindən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiqi idi. Həmin proqramda da əsas icraçılar arasında adı ən çox təkrarlanan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetidir. Hökumətdən gözlənti ilk olaraq icra intizamını gücləndirməkdir. Bu məsələ diqqətdə saxlanmalı və qanunun aliliyi təmin edilməlidir. Bütövlükdə, hökumət onun qarşısına qoyulan vəzifələri həyata keçirib. Onun ayrı-ayrı sahələrinin fəaliyyətinin təhlili bunu deməyə əsas verir. İctimai sabitlik təmin olunub, polisə bir institut kimi inam artıb, hesab edirəm ki, bu, uğurdur. Dövlət-din münasibətləri, dini siyasət muxtar respublikada yüksək səviyyədə aparılır, institusional əsasda sosial təminat sistemində, sözün əsl mənasında, islahatlar aparılıb, bunu görməmək olmaz. Yeni formalaşan İqtisadiyyat Nazirliyinin düşünülmüş inkişaf və idarəetmə konsepsiyası var, vergi yığımında ciddi irəliləyişlər əldə olunub. İnanıram ki, bu yanaşma bir çox problemlərin həllinə şərait yaradacaq. Digər təşkilatların da adını çəkmək olar. Təbii ki, bütün bunlar yeniliklərin tətbiq edilməsi ilə bağlıdır. Hesab edirəm ki, biz məsuliyyətli, vətəndaşa, onun problemlərinə dair tələbkar olmalıyıq. Muxtar respublikada biznesin inkişafı, investisiyaların cəlbi, iş yerlərinin yaradılması qanunun aliliyinin təmin edilməsindən keçir.

Anar İbrahimov bu işdə Ali Məclis adından hökumətə uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov və daxili işlər naziri Süleyman Neymətov deputatların səsləndirdiyi sual və təkliflərə münasibət bildirib, qaldırılan məsələlərə aydınlıq gətiriblər.

İclasda "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatı barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı səsə qoyularaq qəbul edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov deputat Cəbi İsmayılova Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında və səhiyyə sistemində səmərəli fəaliyyətinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanını və deputat Vüqar Abbasova Naxçıvan Muxtar Respublikasında iqtisadi sahədə səmərəli fəaliyyətinə görə "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanını təqdim edib.

Anar İbrahimov, eyni zamanda deputat Turan Məmmədlini may ayının 13-də 40 yaşının tamam olması münasibətilə Ali Məclis adından təbrik edib, fəaliyyətində uğurlar arzulayıb.

Bununla da Ali Məclisin iclası başa çatıb.

# Naxçıvanda Heydər Əliyev adına tam orta məktəbin fəaliyyətə başlamasının 20 illiyi qeyd edilib



Mayın 9-da Naxçıvan şəhərində Heydər Əliyev adına tam orta məktəbin fəaliyyətə başlamasının 20 illiyi münasibətilə tədbir keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin məktəbin həyətindəki abidəsinin önünə güllər düzülüb, dahi şəxsiyyətin xatirəsi dərin ehtiramla yad edilib.

Məktəblə tanışlıq zamanı binada yaradılan müasir tədris şəraiti barədə məlumat verilib. Bildirilib ki, şagirdlərin hərtərəfli biliyə yiyələnməsi ilə yanaşı, vətənpərvərlik ruhunda tərbiyəsi də diqqətdə saxlanılır. Bu məqsədlə foyedə məktəbin məzunu olmuş Vətən oğulları Sahil Məmmədov, Raqib Hüseynov və digər şəhidlərimizin xatirəsinə guşələr yaradılıb, sinif otaqlarına şəhidlərimizin adı verilib.

"Gənclik" Mərkəzində davam etdirilən tədbirdə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Heydər Əliyev adına tam orta məktəbin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi, "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı ilə təltif olunan Məlahət Rüstəmova 2004-cü ildə Ümummilli Liderimizin adını daşıyan məktəbin açılışında ölkə Prezidenti cənab İlham Əliyevin iştirakını qürur hissi ilə qeyd edib. Bildirib ki, məktəb ötən müddətdə Ulu Öndərimizin adına layiq yol keçərək qabaqcıl təhsil müəssisələrindən birinə çevrilib. Məktəbin uğurlarından söz açan Məlahət Rüstəmova əminliklə ifadə edib ki, pedaqoji kollektiv onlara göstərilən böyük etimadı doğrultmaq üçün bundan sonra da dahi öndər Heydər Əliyev ideyalarına sadiq qalaraq daha səylə çalışacaq, milli təhsilimizin tərəqqisi naminə, dövlətimizin gələcəyi üçün vətənpərvər gənclər yetişdirəcəklər.

Heydər Əliyev adına tam orta məktəbin yaradılmasının 20 illiyi münasibətilə məktəbin müəllim və şagirdlərini, eləcə də muxtar respublikanın bütün təhsil ictimaiyyətini təbrik edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov bildirib ki, 2004-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilən Heydər Əliyev adına tam orta məktəb şərəfli inkişaf yolu keçib. 87 müəllim və 624 şagirdlə fəaliyyətə başlayan məktəbdə hazırda 1200 şagird təhsil alır. Ötən müddətdə xalqımızın zəngin maarifçilik ənənələrini layiqincə davam etdirən məktəb təlim-tərbiyə və tədris işinin təşkilində, təhsilli və vətənpərvər gənclərin yetişdirilməsində böyük nailiyyətlər qazanıb. Ötən 20 il ərzində Heydər Əliyev adına tam orta məktəbi 910 məzun bitirib ki, onlardan da 729-u ali məktəblərə qəbul olunub. Həmin məzunlardan 170-i 500-700 intervalında bal toplayıb. Məzunların 36-sı tam orta təhsil haqqında, 56-sı ümumi orta təhsil haqqında fərqlənmə attestatına, 6-sı "Qızıl", 4-ü "Gümüş" nişana və 5-i isə Prezident təqaüdünə layiq görülüb. 2024-2025-ci tədris ilində də tam orta təhsil səviyyəsi üzrə məktəbi bitirən 69 məzundan 40-ı 200-dən yuxarı bal toplayıb. 2007-2008-ci tədris ilinin nəticələrinə uyğun olaraq məktəb "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin qalibi olub. Eyni zamanda təhsildə yüksək nəticələr əldə etdiyinə görə məktəbin müəllimi 2008-2009-cu tədris ilinin yekunlarına görə "İlin ən yaxşı müəllimi" müsabiqəsinin qalibi olub. Ötən 20 ildə məktəbin müəllimlərindən 23-ü təhsil sahəsində fəaliyyətlərinə görə təltif edilib. Onlardan 7-nə "Azərbaycan Respublikasının Əməkdar müəllimi", 11-nə "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adları verilib, 5-i isə "Tərəqqi" medalına layiq görülüb.



Anar İbarhimov qeyd edib ki, məktəbin ən böyük vəzifəsi vətəndaş yetişdirməkdir. Heydər Əliyev adına tam orta məktəbin kollektivi 2004-cü ildən qarşısına qoyulan missiyanı uğurla yerinə yetirir. Məktəbin torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olmuş məzunları hər birimizin fəxarət mənbəyidir. "Pedaqoji heyətin qarşısında müstəqil Azərbaycanın gələcək təminatçılarını yetişdirmək kimi mühüm vəzifə dayanır", – deyən sədr müavini vurğulayıb ki, məktəbdə milli dəyərlərimiz, adət-ənənələrimiz, tariximiz gənclərə dərindən öyrədilməlidir. Təlim-tərbiyə və tədris prosesi bundan sonra da müasir metodlarla qurulmalıdır. Müstəqil Azərbaycan üçün vətənpərvər gənclər hazırlanmalı, məktəb daim möhtərəm Prezidentimizin tövsiyələrinə uyğun fəaliyyət göstərməli və Ulu Öndərimizin adına layiq olmalıdır.

Ali Məclis sədrinin müavini Anar İbrahimov məktəb kollektivinə bu yolda uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikasının təhsil nazirinin müavini, nazir vəzifələrini icra edən Elxan Nəcəfov qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən "Yubilyar məktəblərimiz" layihəsi hazırlanaraq icra edilir. Layihə çərçivəsində bu il Naxçıvan şəhərində Heydər Əliyev adına tam orta məktəbin 20 illiyi, Şahbuz rayonunda Kükü kənd tam orta məktəbinin 100 illik yubileyi qeyd edilir. Bu cür tədbirlərin təşkili, bütövlükdə, Naxçıvan Muxtar Respublikasının 200-dən artıq məktəbinin fəaliyyətinə stimul verir. Tədrisin təşkilində şəffaflığın, şagird nailiyyətini dəstəkləyəcək mühitin təmin edilməsi, bərabər imkanların yaradılması, müəllimlərimizin peşəkar bacarıqlarının artırılması istiqamətində də mühüm addımlar atılır. Ötən müddətdə bir neçə dəfə ibtidai sinif, riyaziyyat, fizika müəllimlərinin forumu keçirilib. Növbəti aylarda digər fənlər üzrə də forumların keçirilməsi nəzərdə tutulur. Mütəmadi olaraq müxtəlif fənn olimpiadaları, bilik yarışları təşkil olunur. Belə layihələrin şagirdlərin bilik və bacarıqlarının artırılmasına xidmət etdiyini deyən Elxan Nəcəfov bildirib ki, Naxçıvan Muxtar Respublikasının 11-ci sinif şagirdləri buraxılış imtahanlarında son 3 ilin ən yüksək nəticəsini toplayıblar. Bu göstərici buraxılış imtahanlarında orta bal həddinə görə Azərbaycan Respublikasında 2-ci yeri təşkil edir.

Təhsil nazirinin müavini bu nailiyyətlərə görə və Heydər Əliyev adına tam orta məktəbinin 20 illiyi münasibətilə təbriklərini çatdırıb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Tükəzban Quliyeva səlahiyyətli nümayəndə Fuad Nəcəflinin salamlarını və təbriklərini çatdırıb. Tükəzban Quliyeva bildirib ki, ötən dövrdə yüksək nailiyyətlərin əldə olunmasının əsasında Heydər Əliyev ideyalarının davam etdirilməsi dayanır. Ümummilli Lider Heydər Əliyev Naxçıvanın Azərbaycana bəxş etdiyi ən böyük dəyərdir. Ümummilli Liderimizin qətiyyəti və yüksək vətənpərvər mövqeyi sayəsində Azərbaycan dili ölkəmizdə rəsmi dil kimi təsbit edilib, Xalq Cümhuriyyətinin üçrəngli ərməğanı Dövlət Bayrağımız kimi qəbul olunub. Ulu Öndərimiz müstəqil Azərbaycanda dövlət gənclər siyasətinin əsasını qoyub. Gənclərimiz dünyanın ən nüfuzlu ali təhsil ocaqlarında təhsillərini davam etdirirlər. "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində 15 gəncimiz dünyanın 10 nüfuzlu universitetində təhsil almaq hüququ qazanıb. Bütün bunlar milli dəyərlərimizə sadiq, vətənpərvər, hərtərəfli biliyə malik gənclər yetişdirməyə imkan yaradıb. O gənclər ki bizə Qarabağ zəfərini yaşatdı. O gənclik ki ölkəmizi dünya miqyasında tanıdır, nailiyyətləri ilə xalqımızın nüfuzunu daha da yüksəldir.

Heydər Əliyev adına tam orta məktəbin də qabaqcıl təhsil müəssisəsi kimi sağlam gələciyimizi yetişdirdiyini bildirən Tükəzban Quliyeva səmərəli fəaliyyəti, intellektual səviyyəsi ilə fərqlənən məktəbin pedaqoji heyətinə müasir Azərbaycan naminə atdıqları hər bir addımda uğurlar arzulayıb.

Sonra Heydər Əliyev adına tam orta məktəbin müxtəlif ali təhsil müəssisələrində, o cümlədən ölkə hüdudlarından kənarda təhsillərini və fəaliyyətini davam etdirən məzunlarının videomüraciətləri izlənilib.

Məktəbin məzunlarından olan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin əməkdaşı Kamran Mehbalıyev xatirələrini bölüşüb, təbriklərini çatdırıb.

Tədbirdə yubileyi münasibətilə məktəbin təltif olunan bir qrup müəlliminə "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adının döş nişanları və vəsiqələri, eləcə də təhsilin inkişafında xidmətlərinə görə Təhsil Nazirliyinin fəxri fərmanı və təşəkkürnamələri təqdim olunub.

Tədbir məktəbin şagirdlərinin hazırladığı bədii hissə ilə davam edib.

Qeyd edək ki, tədbirdə məktəbin yetirmələri olan şəhidlərin ailələri də iştirak ediblər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Neçə-neçə gənclərin yoluna mayak olan 20 yaşlı məktəb, yubileyin mübarək!




















Bu məktəb hələ gəncdir. Cəmi 20 yaşı var. Tarixi uzaq keçmişə söykənməsə də, bu gənc məktəbin yaşından böyük uğurları var. Bu təhsil məbədi xoşbəxtdir, xoşbəxt olduğu qədər də müqəddəs və əziz... Ona görə ki, mənalı həyatı və fəaliyyəti boyu canından çox sevdiyi Azərbaycanın çiçəklənməsi, güclü dövlətə çevrilməsi üçün çalışan və istədiklərinə nail olan Ulu Öndərimizin adını düz 20 ildir ki, şərəflə daşıyır. 20 ildə qoynunda neçə-neçə şagirdə qucaq açan, onlara elm, tərəqqi açarını bəxş edən bu müqəddəs təhsil ocağı Naxçıvan şəhərində yerləşən Heydər Əliyev adına tam orta məktəbdir. Bu məktəbin ən böyük xoşbəxtliyi açılış mərasimində Ulu Öndər Heydər Əliyevin təhsil sahəsində müəyyənləşdirdiyi siyasəti uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin iştirakı idi. 20 il öncə – 2004-cü il, sentyabr ayının 2-də, sadəcə, bir məktəb binası istifadəyə verilməyib, həm də həmin tarixdə Ümummilli Liderimizin təşəbbüsü ilə tikilən, onun adına ucaldılan bir abidənin açılışı olub. Açılış mərasimində ölkə başçısının ***"Bu məktəbin tikintisi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə başlanıb. Heydər Əliyev bu məktəbin tikintisinə çox böyük diqqətlə yanaşırdı, istəyirdi ki, bu təhsil ocağı Azərbaycanda bir nömrəli məktəb olsun"*** sözlərini, verdiyi tövsiyələri məktəbin kollektivi həyat amalına çevirərək sevgiylə çalışır, böyük məsuliyyətlə onlara əmanət edilən uşaqları dövrün tələbinə uyğun yetişdirir.

Deyirlər, insanı yetişdirən, formalaşdıran ilk ocaq ailə, sonra isə məktəb və pedaqoji mühitdir. Müstəqil zövq, fərdi əqidə, əsl vətəndaşlıq səmimiyyəti, daim axtarışda olmaq marağı, bir sözlə, bütöv şəxsiyyət probleminin həlli məhz məktəbdən başlayır. Elə bu məktəbin peşəkar heyəti də şagirdləri kamillik zirvəsinə səsləyir. Gözəl mənəviyyat timsalına çevirir, ümumbəşəri mədəniyyəti sevdirir. Azərbaycanlı mənliyini, Azərbaycançılıq ideyalarını özündə birləşdirən hərtərəfli inkişaf etmiş layiqli övlad olması üçün əlindən gələni əsirgəmir. Bu məktəb dostluğun çox böyük bir əhəmiyyət kəsb etdiyi, qarşılıqlı hörmətin olduğu, xoşbəxt bir ailə ab-havasını hiss etdirən isti bir ocaqdır. Burada ailə mühiti formalaşıb. Ailənin hər bir üzvü intellektual maraq, emosional stabillik və mənəvi hədəflərə əsaslanan güclü şəxsiyyətlərin yetişməsinə xidmət edir.

Bu səbəbdəndir ki, hər tədris ili Heydər Əliyev adına tam orta məktəb yüksək nəticələri ilə qürur duyur. İlk ən böyük nəticə məktəbin 2007-2008-ci tədris ilinin yekununa görə ölkəmizdə "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin qalibi olmasıdır. 20 yaşlı bu məktəb artıq uzun illərdir ki, bir çox təhsil ocağı üçün nümunədir. Çünki bu məktəbdə gənclər sabahımızın təminatçısı kimi yetişdirilir.

Biz də yubiley ərəfəsində "Şərq qapısı" qəzeti olaraq kollektivin sevincinə, həyəcanına şərik olmaq üçün məktəbə üz tuturuq. Sevincini, qürurunu bizimlə bölüşən məktəbin direktoru Məlahət Rüstəmova deyir ki, fəaliyyətə başladığım dövrdən məktəbin kollektivi bu təhsil ocağında ölkə Prezidentinin tövsiyələrini əldə rəhbər tutaraq milli təhsilimizin tərəqqisi naminə çalışır, müstəqil dövlətimizin gələcəyi üçün bilikli, vətənpərvər, müstəqilliyimizin keşiyində durmağı vətəndaşlıq borcuna çevirən gənclər yetişdirilməsi üçün bütün imkanlarını səfərbər edir. Məktəbin müəllimləri unutmurlar ki, burada görülən hər bir iş Ulu Öndərin adına, Onun ideyalarına layiq olmalıdır. 20 il ərzində məktəbi yüksək qiymətlərlə bitirənlərdən fərqlənmə attestatı, "Qızıl" və "Gümüş" medal alan məzunlar etimadı yüksək səviyyədə doğruldurlar.

Şagirdlərinə fizika qanunlarının sirlərini öyrədən, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Raziyyə Hacıyeva məktəblilərin müxtəlif yarışlarda iştirakından, qazandıqları uğurlardan danışır: – Məktəbimiz üçün uğurlu, yaddaqalan 20 il geridə qoyduq, bu 20 ildə Heydər Əliyev adına tam orta məktəbdə güclü təhsil ənənələri yaradılıb. Hər il birinci sinfə qəbul edilən və orta təhsillərini başa vuran məzunlar məktəbin həyatında Ulu Öndər Heydər Əliyevin büstü önündə görkəmli dövlət xadiminin müəyyənləşdirdiyi yol ilə gedəcəklərinə and içirlər. Ali məktəblərdə təhsil alan tələbələrlə kollektivin görüşlərinin təşkil olunması bir ənənə şəklini alıb. Bu və digər belə tədbirlər şagirdlərdə elmə, təhsilə marağı daha da artırır. O da vurğulanmalıdır ki, məktəb təkcə savadlı məzun yetişdirməklə öz vəzifəsini bitmiş hesab etmir, məzunların dövlətçiliyimizə, müstəqilliyimizə, tarixi keçmişimizə, milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda formalaşmasına çalışır.

Məktəbin 11-ci sinif şagirdi, bu tədris ilinin buraxılış imtahanında 295 bal toplayan Xavər Mikayılova da öz fikirlərini bizimlə bölüşür. Deyir ki, bütün abituriyentlər yüksək bal toplamaq, ali məktəb tələbəsi adını qazanmaq arzusunda olur. Onların hamısı uğurlu nəticə əldə edərək həm ailəsini, müəllimlərini sevindirmək, həm də istədikləri təhsil ocağında seçdikləri ixtisasda təhsil almaq istəyir. Mən də arzuma çatmışam, ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamışam. Bu böyük uğura nail olmağımda orta təhsil aldığım Heydər Əliyev adına məktəbdə bizə elmlərin sirlərini öyrədən müəllimlərimin əməyi əvəzsizdir. Ali məktəblərə qəbulda yüksək nəticələr göstərən bütün sinif yoldaşlarım adından onlara minnətdarlığımı bildirir, inanıram ki, müəllimlərimizin bizə göstərdiyi etimadı doğruldacağıq.

Məktəbin 11-ci sinfində təhsil alan, buraxılış imtahanında 293 bal toplayaraq müəllimlərinin sevincinə səbəb olan digər şagird Murad Hüseynquliyev deyir ki, bizim yüksək səviyyədə təhsil almağımız üçün məktəbdə rahat şərait yaradılıb. Elektron lövhəli siniflər, kompüter otaqları, kimya, biologiya və fizika laboratoriyaları, zəngin kitabxana, hərbi kabinə, şahmat sinifləri dərsləri əyani şəkildə qavramağımıza kömək edir. Müəllimlərimiz isə bizim yaxşı təhsil almağımız üçün çalışan fədakar insanlardır. Onların zəhməti qarşısında baş əyir, fədakar əməkləri üçün hər birinə təşəkkür edirəm.

...Məktəb insan həyatının ikinci dünyasıdır deyirlər. Həm də elə bir dünyadır ki, hər kəsin taleyində, həyatında mühüm rol oynayır, əvəzsiz xidmətləri ilə yaddaşlarda iz qoyur. Heydər Əliyev adına məktəb də neçə-neçə gənclərin yoluna işıq saçır, onların xoşbəxt gələcəyə addımlamasında körpü rolu oynayır. Biz də "Şərq qapısı" qəzeti adından məktəb kollektivinə uğurlarının axarlı olmasını diləyir, 20 yaşlı məktəbə neçə-neçə yubileylər arzu edirik!

**Gülcamal TAHİROVA**

## Ümummilli Lider Heydər Əliyevin 101 illiyi münasibətilə yürüş olub





Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101 illiyi münasibətilə Naxçıvan şəhərinin Heydər Əliyev prospekti boyunca hərbi marşın sədaları altında yürüş təşkil olunub. Yürüşə Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları, Heydər Əliyev adına Hərbi Liseyin kursantları, ictimaiyyət nümayəndələri, gənclər qoşulublar. İştirakçılar üçrəngli Dövlət Bayrağımızı dalğalandırıb, vətənpərvərlik ruhunda şüarlar səsləndiriblər.

## Azərbaycan xalqının taleyində parlayan əbədi günəş!

*101 il əvvəl amalı Azərbaycan olan dahi azərbaycanlı Heydər Əliyevin anadan olduğu Naxçıvanda möhtəşəm konsert!*



Tanınmış ulduzlar İlqar Muradov, Fidan Hacıyeva, Ehtiram Hüseynov, Sərxan Abdullayev, Tural Nəcəfov, Samir İsmayılov, İsrafil Qibləliyev, Aygün Zeynalova, Mübariz Əsgərov, İlkin Abdullayev, Gülyanaq Fərzəliyeva, Elvin Babaşov bütün ömrünü xalqına bağışlamış Ulu Öndərə mahnılar ərməğan edəcəklər.

Əziz naxçıvanlılar, mayın 10-u saat $20^{00}$-da "Saat Meydanı"nda baş tutacaq təntənəli axşamda möhtəşəm atəşfəşanlıq sizi gözləyir.

# Dövlət qulluğunda motivasiya: *səmərəli idarəetmənin mənbəyi*

Dövlət orqanında motivasiya sisteminin inkişafı dövlət qulluqçularının işinin səmərəliliyinin artırılmasına və onun düzgün təşkilinə imkan verir ki, bu da dövlət qulluqçularının öz peşə vəzifələrini daha yaxşı icra etməklə yanaşı, dövlət orqanına inamı artırır. Bu da dövlət orqanlarının və ümumilikdə, dövlət idarəçiliyinin fəaliyyətinin səmərəliliyini daha da artırır.

Dövlət orqanlarının səmərəlilik dərəcəsi, öz növbəsində, ölkənin nüfuzunun və sosial-iqtisadi inkişaf səviyyəsinin göstəricisidir. Dövlət qulluqçularının işinin təkmilləşdirilməsi prosesinə gəlincə bu, Azərbaycan Respublikasında dövlət qulluğunun təkmilləşdirilməsi üçün bütün tədbirlər kompleksi (işin stimullaşdırılmasının keyfiyyətcə yeni üsullarının tətbiqi, kadr seçimi metodları, kadrların qiymətləndirilməsi qaydaları, karyera yüksəlişi üçün şəraitin yaradılması) və dövlət qulluğu islahatlarına uyğun olaraq həyata keçirilir. Bu tədbirlərin həyata keçirilməsində xarici təcrübənin əsas götürülməsi mühüm rol oynayır.

Motivasiya işçilərə, onların dəyərlərinə və təlimatlarına uzunmüddətli təsirdən və onlar üçün müəyyən bir motivasiya təməlinin formalaşdırılmasından ibarət olan idarəetmə funksiyasıdır ki, bu da işdə işçilərdən fayda əldə etməyə imkan verir. Motivasiya mürəkkəb bir fenomen olaraq təşkilatda effektiv motivasiya sisteminin yaradılması, işçilərin məqsədyönlü fəaliyyətə həvəsləndirilməsi və təşkilatın inkişaf perspektivlərinin müəyyən edilməsini şərtləndirən amil kimi də başa düşülür. Motivasiyanın bir neçə təsnifatı var. Motivasiya xarici və daxili ola bilir. Daxili motivasiya çox vaxt motiv, xarici motivasiya isə stimul adlanır. Qeyd etmək lazımdır ki, daxili motivasiyaya əsaslanaraq işçilər tapşırıqlara daha məsuliyyətlə, səylə və vicdanla yanaşır, həm də daha tez öyrənirlər. Motivasiya müsbət stimullara (əməkhaqqı, təşəkkürlər, mükafatlar) və mənfi stimullara (cərimələr, aşağı vəzifələr) əsaslanır.

***Ölkəmizdə dövlət qulluğu sisteminin təşkili və dövlət qulluqçularını motivə edən amillər***

Müstəqillik əldə etdikdən sonra ölkəmizin idarəetmə strukturunun optimallaşdırılması və təkmilləşdirilməsi sahəsində çoxsaylı islahatlar aparılıb. Dövlət idarəçiliyi sistemində həyata keçirilən konstruktiv islahatlar digər sahələrdə əldə edilən uğurları da şərtləndirib. Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin əsası qoyuldu. 1995-ci il noyabrın 12-də Konstitusiyanın qəbul edilməsi ilə ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyətinin mütləq komponentlərinin bərqərar olunması istiqamətində təməl strateji tədbirlər görülməyə başlandı.

1996-cı ildə Ulu Öndərin təşəbbüsü ilə yaradılan Hüquqi İslahatlar Komissiyası hüquqi islahatların prioritetlərini müəyyən etdi və sovet ittifaqından miras qalmış hüquq sisteminin fəlsəfəsini tamamilə dəyişdirdi. Dövlət idarəetməsinin səmərəliliyinin artırılması, beynəlxalq standartlara cavab verən idarəetmə sistemi və hüquqi bazanın yaradılmasının təmin edilməsi məqsədilə 1998-ci ildə Ümummilli Lider Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında Fərman imzaladı. 2000-ci ildə respublikamızda ilk dəfə olaraq "Dövlət qulluğu haqqında" Qanun qəbul edildi. Bu qanunun qəbul edilməsi ilə Azərbaycan Respublikasında dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsası qoyuldu.

2003-cü ildə Prezident seçilən cənab İlham Əliyev respublikada dövlət qulluğu sistemində islahatların həyata keçirilməsi prosesini daha da genişləndirdi. Azərbaycan Respublikasında müasir dünyada qəbul edilmiş dövlət idarəetmə sistemlərinə uyğun milli dövlət quruculuğu istiqamətində islahatlar həyata keçirilməyə başlandı. Ölkədə dövlət idarəetmə orqanlarının işi dövrün tələblərinə uyğun yenidən quruldu, keyfiyyətli kadr korpusu yaradıldı, nazirlik və komitələrin müvafiq istiqamətlər üzrə vahid dövlət siyasətini həyata keçirən hakimiyyət orqanlarına çevrilməsi istiqamətində zəruri tədbirlər görüldü. 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradıldı. Komissiyanın əsas fəaliyyət istiqaməti Azərbaycan Respublikasının Konstitusiyasına müvafiq olaraq vətəndaşların dövlətin idarə olunmasında iştirak etmək hüququnun həyata keçirilməsi üçün dövlət qulluğuna qəbulun bərabərlik, şəffaflıq və müsabiqə əsasında keçirilməsi ilə bağlı idi. Azərbaycan Respublikasının dövlət qulluğu üçün müasir tələblərə cavab verən kadr potensialının yaradılması, idarə olunması və ondan səmərəli istifadə edilməsi işinin təkmilləşdirilməsi məqsədilə bir sıra addımlar atıldı.

Yeni müstəqillik qazanmış ölkə üçün yeni idarəçi kadrlar lazım idi. Bu məqsədlə Ulu Öndər Heydər Əliyev respublikada fəaliyyət göstərən 52 təhsil müəssisəsi arasında yeganə olaraq Prezident yanında olan Dövlət İdarəçilik Akademiyasının yaranması haqqında Fərman imzaladı. Akademiya dövlət idarəçilik sahəsi üçün mütəxəssis hazırlanması işinin müasir tələblərə uyğun qurulması, onların peşəkarlıq səviyyəsinin artırılması, dövlət idarəçiliyi sahəsində elmi tədqiqatların təşkili və həmin sahənin analitik-informasiya təminatının möhkəmləndirilməsi məqsədilə yaradılmışdı. Akademiyanın yaradılması dövlətimizin möhkəmləndirilməsi və elmi əsaslarla idarə olunması, yeni idarəetmə mədəniyyətinin formalaşması və inkişafı baxımından xüsusi əhəmiyyətə malikdir.

Azərbaycanda son illər dövlət qulluğu sahəsində qanunvericilik aktları ildən-ilə təkmilləşdirilir, geniş hüquqi baza yaradılır. Dövlət qulluqçularının sosial təminatı da bu peşəyə marağı artırıb. İldən-ilə dövlət qulluğuna gələnlərin sayında müşahidə olunan artım bunu deməyə əsas verir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 2023-cü il yanvar ayının 1-nə verdiyi məlumata əsasən Azərbaycanda dövlət qulluqçularının sayı 27,1 min olub ki, onların da 29,4 faizini qadınlar təşkil edir.

Dövlət qulluqçularının əməyini stimullaşdıran, onlara motivasiya verən amillərdən biri kimi sosial təminat və pensiya təminatını da göstərmək olar. Dövlət qulluqçularının motivasiyasını yüksəldən amillərdən biri də mükafatlardır. Dövlət qulluqçularının motivasiyasının artırılması üçün mütəmadi olaraq dövlət qulluğu sistemində əməkhaqqı artımı prosesi həyata keçirilir. Dövlət qulluğunda, müxtəlif dövlət orqanlarında artıq motivasiya sisteminin bir qədər dövlət büdcəsindən asılı olmayan istiqamətdə, yəni işə əsaslanaraq, xidməti fəaliyyətin nəticəsində işçinin dəyərləndirilərək qiymətləndirilməsi və onun nəticəsində əməkhaqqının artırılması, mükafatların, bonusların, müəyyən qədər zəruri olan güzəştlərin və sair verilməsi istiqamətində işlər aparılır.

***Naxçıvanda dövlət qulluğunda motivasiya tədbirlərinin təkmilləşdirilməsi***

Naxçıvan Muxtar Respublikasının çoxəsrlik dövlətçilik tarixi var. 2023-cü il 30 dekabr tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev muxtar respublikanın yaranmasının Azərbaycanın siyasi tarixində çox mühüm hadisə olduğunu nəzərə alaraq "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir: *"Naxçıvan əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir"*.

Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarına dövlət qulluqçularının qəbulu, inzibati vəzifələrin tutulması Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən həyata keçirilir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 2023-cü ildə dərc etdiyi rəsmi statistik məlumatlara əsasən 2023-cü il yanvar ayının 1-i vəziyyətinə muxtar respublikada 2348 dövlət qulluqçusu var.

Dövlət qulluğuna qəbul üçün dünya trendləri müəyyən olunub. Dövlət İmtahan Mərkəzi (DİM) bu sahədə işlər aparır. Azərbaycan Respublikasında dövlət qulluğuna qəbul islahatlar dönəmindədir. Hazırda səriştə modelinə keçid həyata keçirilir. Bunun üçün DİM böyük tədbirlər həyata keçirir. Artıq Naxçıvanda dövlət qulluğuna qəbul da bu prosesin tərkib hissəsi olub. DİM Naxçıvanda dövlət qulluqçularının təlim ehtiyaclarını öyrənir və bu təlimlərin təşkil edilməsini nəzərdə tutur. Bu həm də Azərbaycan Respublikasının digər bölgələrində də yaşayan vətəndaşların Naxçıvan Muxtar Respublikasında dövlət qulluğuna cəlb olunmasına gətirib çıxaracaq və Naxçıvana müsbət hal kimi təsir edəcək. "Dövlət qulluğu haqqında" Qanuna müvafiq olaraq ayda bir dəfə Bakı şəhəri ilə yanaşı, artıq Naxçıvan şəhərində də sertifikat imtahanları keçirilir. Həmin sertifikat Naxçıvanda olan vətəndaşların Azərbaycan Respublikasının digər dövlət orqanlarına da müraciət etməsinin mümkünlüyünə şərait yaradır. Bu proses ikitərəflidir, həm Naxçıvan Muxtar Respublikası digər bölgələrdə yaşayan mütəxəssisləri cəlb edir, həm də muxtar respublikadakı mütəxəssislər digər regionlarda yerləşən dövlət orqanlarında işləmək imkanı əldə edir. Mütəxəssislər elektron qaydada müraciət etdikdən sonra onlayn müsahibə mərhələsində iştirak edirlər. Beləliklə, mütəxəssislərin imkanları təkcə Naxçıvan Muxtar Respublikası ilə məhdudlaşmır.

Naxçıvan Muxtar Respublikasında dövlət qulluğunda motivasiya tədbirlərinin təkmilləşdirilməsi, o cümlədən dövlət qulluqçularının təlimlərə cəlb edilməsi, onların zəruri tələbatlarının ödənilməsi məsələləri "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın "2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı"nda da öz əksini tapıb. Belə ki, Tədbirlər Planında dövlət qulluqçularının təhsilinin təşkili, dövlət qulluğunda bilik, bacarıq və səriştənin inkişaf etdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi, təlim modullarının hazırlanması, onların təlim tələbatlarının öyrənilməsi və prioritet istiqamətlərin müəyyənləşdirilməsi, müvafiq dövlət orqanlarında (qurumlarında) dövlət qulluqçularının təlimlərə cəlb edilməsi, onların bilik, bacarıq və səriştələrinin inkişaf etdirilməsi məqsədilə təlimlərin keçirilməsi, dövlət qulluğuna qəbul və inzibati dövlət qulluğu vəzifələrinin tutulmasının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə müvafiq normativ-hüquqi aktların, layihələrinin hazırlanması və təsdiq edilməsi, dövlət orqanları üzrə vəzifə təlimatlarının hazırlanması, Naxçıvan Muxtar Respublikası ərazisində dövlət qulluğuna qəbul və inzibati vəzifələrin tutulması üzrə vahid yanaşmanın tətbiq edilməsi, muxtar respublikada qulluqkeçən dövlət qulluqçuları haqqında məlumatların Azərbaycan Respublikasının Dövlət Qulluqçuları Reyestrinə daxil edilməsi, Naxçıvan Muxtar Respublikasında dövlət qulluğuna qəbulun mərkəzləşdirilmiş qaydada aparılması: test imtahanı və müsahibələrin həyata keçirilməsi, muxtar respublikada fəaliyyət göstərən dövlət orqanlarının (qurumlarının) xidmətlərinin rəqəmsallaşdırılması istiqamətində tədbirlər görülməsi, həmçinin elektron xidmətlərdən istifadənin asanlaşdırılması məsələləri öz əksini tapıb.

Muxtar respublikada dövlət qulluğunda motivasiya tədbirlərinin təkmilləşdirilməsi istiqamətində atılan addımlardan biri də dövlət qulluqçularının sosial təminatının yaxşılaşdırılması və mükafatlandırılması məsələləridir. "Dövlət qulluğu haqqında" Qanunda "dövlət qulluqçuları üçün təminatlar", "dövlət məvacibi", "dövlət qulluqçularının pensiya təminatı", "dövlət qulluqçularının mükafatlandırılması" nəzərdə tutulub. Qeyd edək ki, "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı dövlətçiliyin inkişafında xidmətə, peşəkarlığa və xüsusi nailiyyətlərə, vəzifə borcunun ləyaqətlə və vicdanla yerinə yetirilməsinə, dövlət quruculuğu işlərində xidmətlərə görə verilir. "Rəşadətli əməyə görə" nişanı isə dövlət qulluğunda, iqtisadiyyat, elm, təhsil, səhiyyə, mədəniyyət, idman, hüquq-mühafizə və sosial sahələrdə, ədəbi-bədii yaradıcılıqdakı nailiyyətlərə, Naxçıvan Muxtar Respublikasının ictimai həyatında səmərəli fəaliyyətə görə verilir.

**Elşən YOLÇUYEV**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin əməkdaşı*

## Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ilə əlaqədar onlayn dərs keçilib





Mayın 10-da Heydər Əliyev Muzeyindən muzeyin əməkdaşı tərəfindən Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin şagirdləri üçün onlayn dərs keçilib.

Onlayn dərsdə Heydər Əliyev Muzeyinin əməkdaşı Gülnar Quluzadə şagirdlərə Azərbaycan xalqının xilaskarı, Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti, Azərbaycançılıq ideyası və xalqımızın tərəqqisi naminə göstərdiyi xidmətlər haqqında geniş məlumat verib.

Qeyd olunub ki, müdrik rəhbər xalqımıza zəngin maddi və mənəvi dəyərlər, siyasi-iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində qurulmuş müstəqil Azərbaycan dövlətini miras qoyub. Ulu Öndər Heydər Əliyev xalqımız qarşısında misilsiz xidmətləri ilə bu gün hər birimizin qəlbində yaşayır. Bu böyük insanın həyat yolu hər bir məktəbliyə, hər bir gəncə nümunədir.



# Müasir Naxçıvanın uğurları Ulu Öndər Heydər Əliyevin yoluna sədaqətin nəticəsidir

Naxçıvan "Azərbaycana yenidən doğan Günəş" adıyla dünyada yurdumuzu tanıdan, ***"Mən fəxr edirəm ki, azərbaycanlıyam!"*** deyimi ilə xalqını uca tutan, tarixin yeni səhifələrinə öz imzasını atan Ümummilli Lider Heydər Əliyevin Vətənidir. Ulu Öndər Heydər Əliyev əzəli-əbədi torpağımızın xalqımıza bəxş etdiyi ən böyük şəxsiyyət, sözün əsl mənasında, xilaskardır. O, müstəqil Azərbaycanın memarı, xalqımızın xoşbəxt gələcəyinin yaradıcısıdır.

Qədim Naxçıvan torpağı tarixboyu bütün çətinliklərə sinə gərib, Azərbaycanın bu dilbər guşəsinin hər qarışı qəhrəman naxçıvanlılar tərəfindən fədakarlıqla qorunub. Muxtariyyətimizin qazanılmasında, toxunulmazlığımızın qorunmasında çox şücaətlər göstərilib. Ona görə də tariximizin bizə verdiyi bu qiymətli və əvəzsiz töhfəni – muxtariyyət hüququnu qoruyub saxlamalı, muxtar respublikamızı hər sahədə irəli aparmaq üçün əlimizdən gələni əsirgəməməliyik. Bu bizim doğma Naxçıvanımız qarşısında vicdan və vətəndaşlıq borcumuzdur.

Muxtar respublikamızın əsl yüksəlişi və bugünkü tərəqqiyə qovuşması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ötən əsrin 90-cı illərində, mürəkkəb tarixi şərait yarandığı bir vaxtda Naxçıvan Azərbaycanda baş verən ictimai-siyasi proseslərin mərkəzinə çevrilmişdi. Dünya miqyasında böyük nüfuz qazanmış görkəmli dövlət xadimi Heydər Əliyevin 1990-cı il iyulun 22-də Naxçıvana gəlişi bütün Azərbaycana böyük ümid və sevinc bəxş etmişdir. Milli zəmində münaqişələr başlayandan sabahkı həyatlarına naümid baxan, "olum, ya ölüm" dilemması ilə üz-üzə qalan insanlara yeni nəfəs, yeni bir ruh gəldi. Əzablı və məşəqqətli günlərini yaşayan, taleyin ümidinə buraxılmış bir adanı xatırladan diyarı düçar olduğu ağır bəlalardan hifz etməkdən ötrü elə bil yeri-göyü yaradan ilahi qüvvə dahi və müdrik insanı öz doğma yurduna xilaskar göndərmişdi. Bu tarixi qayıdış Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması, ölkənin tərkib hissəsi olan Naxçıvanın erməni işğalından qurtulması, müstəqillik uğrunda mübarizənin ümummilli maraqlar və sağlam siyasi əsaslar istiqamətində aparılması baxımından yeni imkanlar açmışdı. Ancaq acınacaqlı hal odur ki, Azərbaycan rəhbərliyi görkəmli dövlət xadiminin imkanlarını yaranmış çətin vəziyyəti aradan qaldırmaq üçün dəyərləndirmək əvəzinə ona qarşı haqsız-ədalətsiz mövqe tutmaqda davam

## Prezident İlham ƏLİYEV:

***"Milli istiqlaliyyət yolunda Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanmış, respublikada cərəyan edən ictimai-siyasi proseslərə öz müsbət və həlledici təsirini göstərmişdir. Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılması və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verir".***

edirdi.

Azərbaycan rəhbərliyinin manelərinə baxmayaraq, Naxçıvan Muxtar Respublikasının əhalisi qarşısıalınmaz möhkəm siyasi iradə nümayiş etdirərək Ulu Öndərimiz Heydər Əliyevi Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan MSSR Ali Sovetinə deputat seçməklə Ümummilli Liderin fəaliyyət dairəsini daha da genişləndirməsinə yönəldilmiş maneçiliklərin bir çoxunu aradan qaldırmağa nail oldu.

Naxçıvanda ağır ictimai-siyasi proseslərin cərəyan etdiyi dövrdə – 17 noyabr 1990-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin I sessiyası keçirildi. O sessiya ki bu gün də dövlətçilik ənənələri baxımından tariximizdə şərəfli bir yer tutur. Sıravi xalq deputatı Heydər Əliyevin sədrliyi ilə keçirilən həmin sessiyada Azərbaycanın müstəqil, demokratik və dünyəvi dövlət kimi fəaliyyət göstərməsi üçün tarixi qərarlar qəbul edildi.

Sessiyada, ilk növbədə, muxtar respublikanın adından "sovet sosialist" sözləri çıxarıldı, onun "Naxçıvan Muxtar Respublikası" adlandırılması haqqında qərar qəbul olundu. Bəli, bu o vaxtlar idi ki, hələ SSRİ tərkibində olan respublikaların heç birində bu cür cəsarətli addımlar atılmamışdı. Cəmi 300 min nəfər əhalinin yaşadığı Naxçıvanda isə Heydər Əliyev kimi nəhəng və uzaqgörən bir siyasətçinin təklifi və təşəbbüsü ilə bu cür addımlar atılırdı. Həmin sessiyada Naxçıvan MSSR Ali Sovetinin də adı dəyişdirildi. Bundan sonra onun "Naxçıvan Muxtar Respublikası Ali Məclisi" adlandırılması haqqında qərar qəbul olundu. Açığı, sovetlər birliyinin yaşadığı, onun iti qılıncının kəsdiyi bir dövrdə muxtar respublikanın adından "sovet sosialist" sözlərinin çıxarılması, həqiqətən də, böyük uzaqgörənlik tələb edirdi. Bu addımı atmaq, ilk növbədə, kommunist rejiminin qatı və kəskin qəzəbinə düçar olmaq demək idi.

O da xüsusi vurğulanmalıdır ki, Naxçıvan parlamentinin həmin sessiyasında muxtar respublikanın dövlət rəmzləri haqqında məsələ də geniş və ciddi müzakirə edilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin rəmzi olan üçrəngli Dövlət Bayrağının bərpası, onun Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi heç də adi məsələ deyildi.

Naxçıvan əhalisinin müdrikliyi və uzaqgörənliyi həm də onda oldu ki, muxtar respublikanın o ağır və böhranlı şəraitində böyük qəhrəmanlıq nümunəsi göstərərək düzgün rəhbər seçimi edə bildi. Ulu Öndər Heydər Əliyev 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi. Bu, Azərbaycan xalqının itməkdə olan ümidlərinin dirçəldilməsi, gələcəyə inamının artması baxımından da böyük dönüş demək idi. Xalqımız əmin oldu ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikası heç vaxt düşmən tapdağına çevrilə bilməz.

O dövrdə Naxçıvanda Azərbaycanın gələcək taleyi üçün mühüm tədbirlər həyata keçirilmişdir. Sovet qoşun hissələri və sərhəd dəstələri onlara məxsus olan silah-sursatın, texnikanın və əmlakın Azərbaycanın digər yerlərindən fərqli olaraq tamamilə Naxçıvanda saxlanması şərti ilə bu torpağı tərk etmiş, 20 Yanvar faciəsinə ilk dəfə hüquqi-siyasi qiymət Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında verilmiş, bu günün "Milli Matəm Günü" kimi qeyd olunması barədə qərar çıxarılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il dekabrın 16-da keçirilmiş iclasında hər il 31 dekabrın "Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü" kimi bayram olunması barədə Qərar qəbul edilməsi planetin müxtəlif guşələrində yaşayan azərbaycanlıların birliyinə nail olmaq baxımından düşünülmüş uzaqgörən, mühüm siyasi əhəmiyyətə malik olan tarixi hadisədir.

"Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli Sərəncamında da deyildiyi kimi: *"Naxçıvanın davamlı inkişafında Ümummilli Lider Heydər Əliyevin böyük xidməti vardır. Ulu Öndər hakimiyyətə gəldiyi vaxtlardan etibarən daim Naxçıvanı diqqətdə saxlamış, muxtar respublikanın gələcəyi ilə bağlı ən vacib qərarların təşəbbüskarı olmuşdur.*

*Məhz Heydər Əliyevin uzaqgörənliyi sayəsində 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət rəmzi olaraq qəbul edilməsi dövrün mürəkkəb ictimai-siyasi proseslərinə həlledici təsir göstərmiş və Azərbaycanı müstəqilliyə sürətlə yaxınlaşdırmışdır".*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi Ulu Öndər Heydər Əliyev Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda müstəqil dövlətçilik prinsiplərinin bərqərar olması, möhkəmləndirilməsi üçün zəruri olan əsas tədbirləri həyata keçirmişdir. Bu mənada, işğaldan xilas edilmiş, böyük inkişafın əsasları yaradılmış 100 illik yubileyini qeyd etdiyimiz Naxçıvan Ümummilli Liderimiz Heydər Əliyevin müstəqil Azərbaycana ən böyük ərməğanı, əmanətidir.

Naxçıvanın muxtar respublika statusu bu bölgənin 100 illik tarixi taleyində, onun ərazisinin qorunub saxlanılmasında və təhlükəsizliyinin təmin edilməsində çox mühüm rola malik olmuşdur. Bu illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi qüdrətinin yüksəlməsinə və hərtərəfli inkişafına da öz layiqli töhfəsini vermişdir. Ölkə Prezidentinin dediyi kimi: ***"Milli istiqlaliyyət yolunda Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanmış, respublikada cərəyan edən ictimai-siyasi proseslərə öz müsbət və həlledici təsirini göstərmişdir. Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılması və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verir".***

Ulu Öndər Heydər Əliyevin Naxçıvanın muxtariyyət statusunun qorunması, muxtar respublikanın yubileylərinin keçirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər dahi rəhbərin bu qədim yurd yerinə qayğısının ifadəsi idi.

Naxçıvan bütün yönlərdə yeniləşir, inkişaf edir. Təbiətin və insanın qüdrəti ilə müqəddəsləşmiş bu məkan sabaha daha geniş qucaq açdıqca onun dünəni də əzəmətlə baş qaldırır, bu intibahın təsadüfi olmadığı, ulu köklərdən qaynaqlandığı aydın görünür. Dövlətimizin ildən-ilə artan iqtisadi gücü, ölkə Prezidenti cənab İlham Əliyevin muxtar respublikaya xüsusi diqqət və qayğısı Naxçıvanın daha da çiçəklənməsində həlledici amilə çevrilmişdir. Prezidentliyi dövründə cənab İlham Əliyevin dəfələrlə diyarımıza səfər etməsi dövlət başçısının Naxçıvanın sosial-iqtisadi inkişafına verdiyi böyük önəmin göstəricisidir: ***"Naxçıvan, sözün əsl mənasında, inkişaf edir. Naxçıvanda bütün sahələrdə çox uğurlu inkişaf prosesi gedir. Dinamik inkişafdır. Bu məni çox sevindirir. Çünki bu, Heydər Əliyev siyasətinin təntənəsidir. Ulu Öndərin rəhbərliyi altında ölkəmiz böyük inkişaf yolu keçmişdir. Bu gün bütün sahələrdə, bütün bölgələrdə və o cümlədən Naxçıvanda Heydər Əliyev siyasəti uğurla icra edilir. Bu siyasət milli maraqlarımızın müdafiə edilməsi üçün yeganə düzgün siyasətdir. Ölkəmizin dinamik inkişafı göstərdi ki, bu siyasətə alternativ yoxdur".***

Bütün bu uğurların əsasında isə Heydər Əliyev yoluna, quruculuq xəttinə sadiqlik, bu yolda göstərilən böyük əzmkarlıq, möhkəm qətiyyət, misilsiz dövlət və Vətən sevgisi dayanmışdır. Ulu Öndərimiz deyirdi: ***"İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin".***

Xalqımızın böyük oğlunun arzuları artıq reallığa çevrilmişdir. Naxçıvan Ümummilli Liderimizin görmək istədiyi kimi inkişaf etdirilir, yenidən qurulur, işıqlı gələcəyə doğru inamla addımlayır.

**Jalə MİRZƏYEVA**
***Naxçıvan Muxtar Respublikası "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin bələdçisi***

*Məqalə "Şərq qapısı" qəzetinin elan etdiyi "Naxçıvan 100 ildə" yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür*



# 100 ilin qəhrəmanları

*“Şərq qapısı” qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Şərur rayonunun Yengicə kəndindən olan şəhidimiz Əli Əliyevin anası Nailə Əliyevanın, Şərur rayonunun Çərçiboğan kəndindən olan şəhidimiz Seymur Cabbarovun anası Vəsilə Cabbarovanın və Babək rayonunun Nehrəm qəsəbəsindən olan şəhidimiz Ümid Məmmədovun anası Dostu Məmmədovanın övladları haqqında xatirələri yer alıb.*

## Əli Cavad oğlu Əliyev

*(01.09.1997-13.09.2022)*



### Vətən, millət yolunda şəhid oldu



Əli çox zarafatcıl, deyibgülən uşaq idi. Evdə də qoymazdı ki, kimsə kədərli ola. Kiminsə gözündən bir damla yaş axa. Ağlayan adamı belə güldürərdi. O qədər dəcəl idi ki, bir dəqiqə bir yerdə durmazdı. Həm də çox savaşqan idi. Elə bil ki, yaşından tez böyümüşdü. Hər zaman özündən böyüklərlə oturub-durardı. Atası həmişə hirslənərdi ki, ay oğul, onlar sənin tayın deyil. Yenə də baxırdın ki, ancaq özündən böyüklərlə gəzir.

Hərbini özü seçdi. Biz istədik böyük qardaşı getsin, amma Əliyə qismət oldu. Məktəbdə çox yaxşı oxuyurdu.

Hələ 10 illik müqavilədən qabaq dedik ki, Əli işdən çıx. Onda Vətən müharibəsində də iştirak etmişdi. Dedi ki, siz nə danışırsınız. Bizim mübarizəmiz hələ bundan sonra başlayır. Mənim hədəflərim var.

44 günlük Vətən müharibəsində yaralanmışdı. Mənim heç xəbərim də olmadı. Deyib ki, anama heç kim deməsin. Qazi olduqdan sonra Naxçıvana gəldi. Gəlmişdi vəsiqəsini almağa. Onda mənə dedi ki, ana, mən qazi olmuşam. Evə gəldikdən sonra bədənindəki qəlpə izlərini gördüm. Onda da dedik ki, qazisən getmə. Dedi ki, getməliyəm.



Ona təqaüd də kəsilmişdi. Təqaüd kartını mənə verdi. Dedi ki, ana, pulu sən alarsan. Dedim ki, Əli, mənim ürəyimdən gəlməz. O pulu xərcləyə bilmərəm. Pulu bir yerə yığıb səni evləndirəcəyəm. Əcəl macal vermədi. Balamı qara torpaq aldı.

Sonuncu dəfə sentyabrın 12-si danışdıq. Mənə zəng vurmuşdu. Amma mənə zəng çatmayıb. Atasına zəng vurmuşdu. Deyib ki, ata, biz hazırlaşırıq, bir yer var, oranı götürəcəyik. Deyib ki, anama niyə zəng çatmır? Atası telefonu mənə verdi, sonuncu dəfə balamla danışdım. Yaxşı da danışırdı. Səhər yuxudan durduq dedilər ki, Əli şəhid olub. Vətən sağ olsun!

## Seymur İlham oğlu Cabbarov

*(16.03.1987-03.10.2020)*

### Vətən qəhrəmanlarını unutmur!





Vətən varsa, şəhidi də, qəhrəmanı da vardır. Seymur da onlardan biri. Şərurdakı liseydə oxuyurdu. Sonra öz istəyi ilə oranı tərk etdi. Sənədlərini hərbi liseyə verdi. Seymur bilirdi ki, atası da Seymur yaşda olanda Zaqafqaziya Hərbi Akademiyasına sənədlərini verib, sonra geri almışdı. Atasının da böyük arzusu idi hərbçi olmaq. Amma Seymura qismət oldu hərbçi həyatı. Atası da, mən də nə qədər dedik, eşitmədi bizi. Gördük ki, Seymurda bu bir həvəs deyil. Bu, ömrünü, həyatını, gəncliyini Vətəninə, millətinə həsr etməkdir. Və elə də oldu.

Seymur çox səliqəli, təmiz, böyük-kiçik yerini bilən oğlan idi. Hər kəsi öz dili ilə danışdırardı. Həm də çox dünyagörüşlü idi.



Atamgildə idik. Biz müharibənin başlanmasını orada eşitdik. Çox narahat olduq. Orada otura bilmədik, evə gəldik. Seymur 27 sentyabrdan döyüşə gedib. İki gün biz bilmədik ki, Seymur döyüşdədir. Müharibə vaxtı da, əvvəllər də hərbçi həyatından, gördüyü işlərdən bir kəlmə danışmazdı. Danışanda, sadəcə, deyirdi ki, mən təlimdəyəm. Gecə saat 11-də bir neçə dəfə zəng vurduq, telefonu açmadı. Əslində, bir neçə gün ondan əvvəl atasına demişdi ki, əgər zənginizə cavab vermirəmsə, deməli, iş başındayam. Atası Seymurun yoldaşına zəng vurdu. Yoldaşı dedi ki, heç mənə də zəng vurmayıb. Heç bir xəbər yoxdur. Bir onu bilirik ki, müharibədir. Yoldaşına belə hara, nəyə getdiyini deməmişdi.

Atası tez-tez Seymura zəng vururdu. Ancaq cavab ala bilmirdi. Nəhayət, Seymur telefonu açdı. Çox təngnəfəs danışırdı. Dedi, ata, narahat olma, vəziyyət yaxşıdır. Biz təlimdəyik. Seymurla sonuncu danışığımız o oldu. Ondan sonra balamızdan bir xəbər çıxmadı.

Bax belədir insanın taleyi. Hər kəsin bir taleyi, bir qisməti var. Bilirik ki, balamız Vətən, millət yolunda, sizin, bizim yolumuzda şəhid olub. Mən həmişə deyirəm ki, bizim balalarımız torpaq qaytaran şəhidlərdir. Allah məkanlarını cənnət, ruhlarını şad etsin. Vətən sağ olsun!

## Ümid Fərman oğlu Məmmədov

*(14.03.1999-05.10.2020)*



### Təkcə Ümidin zəngi yoxdur



Ümid uşaqların gözü idi. O qədər sakit idi ki, deməklə qurtarmaq olmaz. Çox vətənpərvər idi. Bu vətənpərvərlik hissi onu hərbi liseyə apardı.

Pandemiya vaxtı nənəsi rəhmətə getmişdi. Biz də Bakıda idik. O, birtəhər də olsa, nənəsinin yasına gəlmişdi. Orada bizimlə danışdı ki, müharibə olacaq. Balaca qardaşı həmin vaxt Nehrəm qəsəbəsində qalmışdı. Fikri onun yanında idi. Deyirdi ki, onu əsgərliyə aparacaqlar. Müharibə başlasa qardaşım necə olar. Biz Bakıda olanda balaca qardaşını əsgərliyə apardılar. Elə hey deyirdi Ümid.

Həmin vaxt bizimlə görüşəndə ayrıla bilmirdi. Sanki hiss etmişdi son görüşümüzün olmağını. Atası onu yola salmağa gedirdi. Mənimlə qucaqlaşdı. Bir qədər gedəndən sonra geri qayıtdı. Məni bir də qucaqladı. Hər ikimiz ağladıq.

Danışmaq çox çətindi. Sözlər boğazımda düyünlənir. Sentyabrın 26-sı yaxınlarına zəng vurub. Həm ata, həm də ana tərəfdən olan qohumlarla danışıb. Dayanmadan hər kəsə kontur göndərib. Mənimlə danışanda dedi ki, bir babama kontur göndərməmişəm. İndi ona da göndərəcəyəm.

Sonuncu dəfə görüşəndə telefonlarının ikisini də bizə verdi. Birini atasına, birini də mənə. Özü sadə telefonu götürdü. Dedi, mənə zəng çatmasa, narahat olmayın. İndi hər ikimiz onun telefonlarını işlədirik. Həmin telefonlara hər kəsdən zəng gəlir. Təkcə Ümidin zəngi yoxdur.

Ümid tank komandiri idi. Hamının sevimlisinə çevrildi.



Oktyabrın 4-də Ümidə zəng vurdum. Telefonu döyüş yoldaşı açdı. Dedi ki, Ümid telefonunu verdi mənə. Biz vurulmuşuq, Ümid özü döyüşdədir, yanında iki əsgər var, onlarla birlikdə tankla tək döyüşürlər. Biz yaralı olduğumuz üçün dəstək də verə bilmirik. Elə son xəbəri onda aldıq. Vətən sağ olsun!




# Torpağından qəhrəmanların ətri gələn, bulaqlarının gözündən vətənpərvərlik süzülən cənnətdir

Şuşaya şəhid ailələri ilə birlikdə qədəm qoyarkən bir anlıq xalqımızın qəhrəman oğullarının yaxınlarına nəzər salıram. Körpələrin atası, anaların balası, əlinin xınası getməyən gəlinlərin həyat yoldaşları, bacıların qardaşı, qardaşların, ataların arxa-dayağı olan oğulların qanı ilə sulanan bu torpağa baxıram. Dilə gəlir düşüncələrim, səslənirəm Şuşaya, Natəvana, Vaqifə, Üzeyir bəyə:

– Qalx, ellərin sevimli qızı Natəvan, qarşıla sənin ruhunun azadlığı uğrunda canından keçən oğulları dünyaya gətirən anaları. Axı sən də övlad acısı çəkmisən, ürəyin bala həsrəti ilə yanıb. Halallıq al, Şuşanın hər qarışı uğrunda can verən oğulların analarından. Onlarla bərabər layla de, toy xonçası məzarına düzülən, bəy köynəyini kəfənlə dəyişən oğullara.

– Oyan, Şuşanın əsl sahibi, ürəyi qürbətdə dayanan Pənahəli xan. Oyan ki, şəhid ataları səni görüb təsəlli tapsın. Ruhunu şad edən oğulların atalarına onların igidliyindən danış ki, bilsinlər, necə qəhrəman oğullar böyütdüklərini. Vətən sevgisini səndən öyrənən, Vətəni üçün canını fəda edən igidlərin əzizlərinə bəhs et onların qəhrəmanlığından. Şuşanın hər qarışına qanı tökülən oğulların son dəfə nəfəs aldığı yerləri göstər analarına. Son sözlərinin nə olduğunu de şəhid balalarına. Qoy onlar da bilsin, atalarının son arzusunun nə olduğunu.

– Hüququndan keçən əsgərlərin qardaşlarına təsəlli ver, Üzeyir bəy. Azərbaycan Himnini Şuşada səsləndirən Oğuz elinin qəhrəman igidlərinin analarına, övladlarına təskinlik ver. Oyan, Vaqif, xalqımızın dövlətçilik tarixini öz qanları ilə dəyişdirən oğulların ata əvəzinə soyuq məzardaşına sarılan övladlarından, yollara dikilən baxışlarına əbədi həsrət çökən xanımlarından halallıq istə. Cıdır düzündə "Qarabağ şikəstəsi" səslənəndə ruhuna sakitlik gələn Bülbül, səs elə, duysun səsini qəhrəmanların anaları. Cənnət Şuşa, dilə gəl, təşəkkür et, sinəndəki düşmən bayrağını söküb atan oğulları böyüdən atalara. Cıdır düzü, sən də danış, o sıldırım qayalarının çətin keçidlərindən keçib gələn oğullardan. Axı yüz illər boyu heç kimin ayağı dəyməyən o keçilməz uçurumu kimsə aşa bilməmişdi. Duydunmu ki, gələnlər səni azad etmək üçün canından keçəcək, yol verdin onlara. Qarabağ atının seyrəngahında şahə qalxdığı həmin günü gördün axı. Danış azad olduğun gündən şəhid anasına. Dil aç, əziz Şuşa, cənnət Şuşa, oğulların son arzusunun nə olduğunu de sənin ziyarətinə gəlib, torpağını ovuclayıb balalarının ətrini duyan analara. Axı sən hamıdan yaxşı bilirsən, həsrətin nə olduğunu. İllərlə həsrətli baxışların dolanbac yollarında qaldı, sənin gözlərinin yaşı qəlbini yandırdı Azərbaycan anasının. Oğullar böyüdüb sənə qurban dedi axı qadınlarımız. "Kürəyindən vurulma, südüm sənə haram olar", – dedilər oğullarına. Toy xonçalarını şəhid məzarlarına düzəndə "Şuşa azaddır" xəbərini eşidib qürurla dayandılar məzar başında. Dilə gəl, Tanrının yer üzündəki ən sevimli şəhəri.

Həmin an sanki Şuşa dil açıb danışmağa başladı:

– Mən Şuşayam, həmin Şuşa ki hələ 272 il bundan öncə təməlim Pənahəli xan tərəfindən qoyulub. Çəmənlərimdə Vaqifin şux gözəli gəzdi, Natəvanın qəzəli ruhunu məndən aldı. Anam Qarabağın görən gözü, döyünən ürəyiyəm mən. Bərəkətli torpağıma, gözəl hüsnümə, Çətir şəlaləmə, Topxana meşəsinə sahiblənmək istəyənlər az olmayıb. Tarixboyu Azərbaycana göz dikənlərin ilk hədəfi də mən olmuşam. Axı mən Qafqazın cənnəti idim. İran şahlarının, rus imperatorlarının qoşunlarının hücumlarına çox sinə gərmişəm igid oğullarımla bərabər. Onlar Vətəni öz canlarından əziz tutub məni qoruyublar. Çətin günlərim çox olub, ən çətini isə dinimdən, dilimdən olmayan bir tayfanın sinəm üstə köç etməsi idi. Gəldilər, yerləşdilər, mənə sahiblənməyə çalışdılar. Oğullarım, qızlarım imkan vermədi onlara, amma. Fürsət tapan kimi kök saldılar torpağıma boy atıb böyüsünlər deyə. Sapı özümüzdən olan baltalar hesabına işğal etdilər məni, əsir aldılar. Düz 28 il 9 ay dərd çəkdim yad tapdaqda, sinəmə düşmən əsgəri ayaq basdıqca nəfəsim kəsildi. Qoynumda uyuyan şəhidlərimin məzarına divan tutulduqca ah-naləm ərşə qalxdı. Tarixboyu sinəm üstə ucalıb düşmənə gözdağına çevrilən minarələr, hamamlar, məscidlər xarabaya çevrildikcə dabanımdan od tutdum. Cıdır düzündə düşmən yallı gedəndə tüstüm göylərə qalxdı. Yandım, kül oldum yad baxışlarda. Bulaqlarımın gözündən axan sular qurudu məscidlərim tövləyə çevriləndə, minarələrdən azan yerinə düşmən musiqisi eşidiləndə. Vaqifimin məzarı dağıdılanda, Natəvanımın, Bülbülümün, tarixə ad salan igid sərkərdələrimin malikanələri xarabaya çevriləndə, dağlarımda düşmən var-gəl edəndə, çəmənlərimdə bitən xarıbülbülün ətrini erməni əsgəri almasın deyə solanda:

*Əzizim qoşa dağlar,*
*Gedibdi huşa dağlar,*
*Öldü bülbül, soldu gül,*
*Kimsəsiz yaşa, dağlar, –*

deyib ağladım illərcə. Gözüm uzaq yollarda, əzizlərimin getdiyi yerlərdə qaldı. Mən illərlə həsrət çəkdim. 28 qış gəldi, yaz keçdi, yay oldu, amma mənim baharım gəlmədi. Mən burada dondum, od tutdum, sakinlərim isə uzaq diyarlarda. Ümidimi itirmədim, bilirdim ki, Vətəndən pay olmaz, Vətənin oğulları məni azad edib evimə qaytaracaq. Elə düşündüyüm kimi də oldu. Ümidim həqiqətə çevrildi. Ömrünü Vətənə qurban verən oğullar bir payız günündə, dumanlı-çənli bir gündə canlarını qurban verdi mənim bir ovuc torpağıma. Onların igidliyi ilə Günəş yenidən, illər sonra doğuldu səmamda. Torpağım ərənlərin qanına bələndikcə layla dedim onlara. Qalx Vaqif, oyan Natəvan, Pənahəlim, igid sərkərdəm, baxın görün kim gəlir, – dedim. Vətənin əsl oğulları gəlib sizin ruhunuzu azad etməyə, qanları ilə mənə can verməyə. Şəhidlərimin ruhu ağ göyərçin olub səmamda süzüldükcə illərdir, yara olan köksüm sağaldı. Köksümə sancılan, nəfəsimi kəsən düşmən bayrağını söküb ayaqlar altına atan oğullarım ürəyimə fərəh, sevinc gətirdi. Payızım yaza döndü həmin ildən sonra. Xarıbülbül solmamışdı həmin payız, o da hiss etmişdi əsl sahibinin gələcəyini. Hər ilin bu vədəsində qar yağardı köksümə, həmin il o da yağmamışdı. Yağıb yolları kəsmək istəməmişdi. Çünki hiss edirdim igidlərimin gəldiyini. Tanrı mənim səsimi duymuşdu. Tanrı oğullarıma elə bir güc vermişdi ki, düşmənin nəfəsini həmişəlik sildilər torpağımdan.



Üzüm gülür daha, qəlbim qan ağlamır. Dincəlirəm mən artıq, dirçəlirəm, xoşbəxt görünürəm. Cıdır düzündən "Qarabağ şikəstəsi", "Vətəndən pay olmayır" sədaları yüksəldikcə, Şuşa qalasına yaraşıq verən üçrəngli, ay-ulduzlu bayrağım dalğalandıqca ruhuma sakitlik gəlir. İgid oğullarım köksümə yaraşıq verir. İndi mən ilk məhəbbətinə, vüsalına qovuşan Şuşayam. Susuzluqdan, həsrətdən çat verib qanayan dodaqlarıma təbəssüm qonub indi. Mən həmin Şuşayam, artıq Qafqazın cənnəti, Azərbaycanın sənət beşiyi, Qarabağın tacı Şuşa, Azərbaycanın azad Şuşası, xarıbülbülün azad yurdu, abad yurdu. Haqqınızı Vətənin bir parçasına halal edin ata əvəzinə soyuq daşlar qucaqlayan körpələr. Haqqınızı halal edin toy xonçasını məzara aparan analar.

Vətən müharibəsində hər kəndə, hər şəhərə – Suqovuşana, Xudafərinə, Zəngilana, Qubadlıya bayrağımız sancılanda sevincimiz sonsuz oldu. Amma Şuşada bayrağımız dalğalananda sevincimiz ürəyimizdəki həsrətlə, qubarla qarışdı, sevinc göz yaşına çevrildi. Çünki Şuşa qeyrət rəmzimiz, Pənahəli xanın qürbətdə dayanan ürəyi, başqa torpağa kök salmayıb Şuşada düşmən tapdağında solan xarıbülbülün ah-naləsi, başımızın əsarətdə qalan tacı, düşmənə əsir olan Vaqif, Natəvan sözü, Bülbülün səsi idi. Şuşa hünər, zəfər zirvəsi, illərlə könlümüzdə qubar olan dərdimiz idi. Şuşa dağların başında əsir qalan cənnətimiz, düşmən baltasına tuş gələndə tüstüsü ərşə qalxan Topxana meşəsinin harayı, İsa bulağının zümzüməsi, Cıdır düzünə həsrət qalan Qarabağ atının səssiz fəryadı idi. Şuşa yollara dikilən həsrətli baxışlarımız, dilim-dilim olan ürəyimiz, hər bir azərbaycanlı üçün əziz olan yurdumuzdur. Ulu Öndərin dediyi kimi: ***"Şuşa təkcə şuşalılar üçün deyil, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".***

Bu gün oğullarımızın qəhrəmanlığı sayəsində Şuşa qalasında üçrəngli, ay-ulduzlu bayrağımız qürurla əbədi olaraq dalğalanır. Bax bu həmin bayraqdır. Şuşa uğrunda canından keçən onlarla igidə bəy paltarı olan bayraq. Və bu bayraq yüz illər sonra da qürurla dalğalanacaq. Qarabağda hər səhər doğulan Günəş də, gecələri aydınladan Ay da igid oğulları xatırladacaq hər kəsə.

**✍ Ramiyyə ƏKBƏROVA**

## Elan

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi münasibətilə insan hüquqları ilə bağlı məqalə müsabiqəsi elan edilir.

***Mükafatlandırma:***

*I yer - 500 manat, fəxri fərman.*
*II yer - 300 manat, fəxri fərman.*
*III yer - 200 manat, fəxri fərman.*

***Müsabiqə şərtləri:***

Müsabiqəyə təqdim olunmuş məqalələrdə üstünlük veriləcək:

*- Mövzunu dolğun əhatə etmə səviyyəsi;*
*- Faktlardan istifadə xüsusiyyətləri və araşdırmanın keyfiyyəti;*
*- İfadə vasitələrinin zənginliyi;*
*- Maarifləndiricilik xüsusiyyəti;*
*- Oxucu üçün informasiyalılıq dərəcəsi;*
*- Müsabiqəyə 6 maydan 6 iyunadək çap və onlayn media subyektlərində yayımlanan məqalələr buraxılacaq;*
*- Müsabiqəyə təqdim olunmuş məqalələr Azərbaycan dilində hazırlanmalı, 9-11 min işarədən (1 A3 formatlı qəzet vərəqindən) çox olmamalıdır.*

Məqalədə ***"Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi münasibətilə keçirdiyi müsabiqəyə təqdim olunur"*** qeydi olmalıdır.

***Məqalələrin təqdim edilməsi:***

Müsabiqə üçün yazıların təqdimatı 2 yolla aparılır – şəxsən və elektron qaydada.

***Məqalələr təqdim edilərkən aşağıdakılar nəzərə alınmalıdır:***

*- Məqalə təqdim edən şəxsin şəxsiyyət vəsiqəsinin surəti;*
*- Məqalə təqdim edən şəxsin əlaqə vasitələri – ev və iş telefonu, mobil telefonu;*
*- Məqalə (elektron qaydada təqdim edilərkən "Word" faylında, imzasız);*
*- Müsabiqə məqaləsinin yayımlandığı çap mediasının 1 nüsxəsi (elektron qaydada təqdim edilərkən PDF, JPG, yaxud "Word" faylında);*
*- Məqalə elektron media resursunda yayımlanıbsa, bunu təsdiqləyən "link";*
*- Materialın yazılı formada A4 formatlı kağız vərəqində 3 nüsxəsi (nüsxələrdə müəllifin adı göstərilməməlidir).*

Məqalə və məlumatlar elektron poçt vasitəsilə *nmr.ombudsman.musabiqe@gmail.com* ünvanına təqdim edilməlidir.

Müsabiqə üçün məqalələr elektron poçt vasitəsilə, eləcə də şəxsən 6 may 2024-cü il tarixdən 6 iyun 2024-cü il tarixədək, həftənin iş günləri saat $10^{00}$-dan $17^{00}$-dək Naxçıvan Muxtar Respublikası, Naxçıvan şəhəri, Atatürk küçəsi 8 ünvanına təqdim edilməlidir.

Təqdimat prosesində müsabiqə şərtlərinin hər hansı birinin yerinə yetirilməməsi qaydaların pozulması kimi qiymətləndiriləcək və yazı qəbul edilməyəcək.

## Bildiriş

Naxçıvan Dövlət Universiteti 2023-2024-cü tədris ilinin yaz imtahan sessiyası ilə əlaqədar qiyabiçi tələbələrin nəzərinə çatdırır:

1. Universitetin qiyabi şöbəsinin bütün ixtisaslarında (əlavə ali təhsil də daxil olmaqla) yaz imtahan sessiyası 3 iyun 2024-cü il tarixdən başlayır və 20 iş günü davam edir.
2. Bütün qiyabiçi tələbələrin sessiyada iştirakı zəruridir.

## İtmişdir

Babək rayonu, Sirab kənd sakini Əsədov Teymur Teymur oğlunun adına olan $260^{B}$ nömrəli "Torpağın mülkiyyət hüququna dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur şəhəri, N.Nərimanov küçəsi, ev 7, mənzil 4 ünvanında Ələkbərov Rasim Müslüm oğlunun adına olan 683 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Çeşməbasar kəndində yaşamış Məmmədov Fəxrəddin Bədəl oğlunun adına olan JN-584 nömrəli 10310005 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Oğlanqala kənd sakini Quliyev Nizami Muxtar oğlunun adına olan JN-$365^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Kərimbəyli kəndində yaşamış Məlikov Zülfüqar Dili oğlunun adına verilmiş $222^{C}$ nömrəli mülkiyyətə verilmiş 10308018 kodlu torpaq sahəsinin sənədi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xanlıqlar kəndində yaşamış Rzayev Abbas Əli oğlunun adına olan JN-$169^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Zamanova Mürvət İman qızının adına olan JN-$708^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Püsyan Təzəkənd sakini Tağıyev İspəndiyar Əkbər oğlunun adına olan JN-0067 nömrəli dövlət aktı və JN-$31^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbə sakini Quliyev Abbas Yusif oğlunun adına olan JN-$2135^{A,B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Dizayner: Tacirə Vəliyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 143